# HƏFTƏ İÇİ

www.hafta.az

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

№ 41 (3507) Cümə axşamı / 16-22 noyabr 2023-cü il Qiyməti 40 qəpik


# Fransadan sülhə zərbə

***Vətən müharibəsində ağır məğlubiyyətə uğrayaraq, bütün hərbi imkanlarını tükədən Ermənistan Qərbin "şirin" dilinə aldanaraq, Azərbaycanla sülh müqaviləsi imzalamaqdan imtina edir, həmçinin özünün 30 illik ağası Rusiyaya qarşı demarşını davam etdirir. Bu işdə ən böyük dəstəkçisi isə dünya siyasətində diplomatik məğlubiyyətlərlə heç bir konkret hədəfi olmayan Fransadır. Daha doğrusu, buradakı erməni lobbisinin əsirinə çevrilən fransız hökumətidir. Sirr deyil ki, Paris illərboyu ermənilərin Azərbaycan torpaqlarının işğalını sürdürməsinin gizli dəstəkçisi olub. Azərbaycanın tarixi zəfəri Fransanın əsl simasını ortaya qoyub. "Uğurlu gələcək, Avropaya inteqrasiya, Qərb sərmayəsi" kimi aldadıcı vədlərlə bu gün Cənubi Qafqazdakı mövcud reallığı və sülh imkanlarını sıfıra endirməyə çalışan Fransa nümayişkaranə şəkildə Ermənistanı silahlandıracağını bəyan edib.***





Nümunə sayıla biləcək sayda hava hücumundan müdafiə sistemləri vəd edən Paris indi də İrəvana köhnəlmiş və heç bir işə yaramayan "Bastion" döyüş maşınları göndərir. Hansı ki, bununla bağlı xəbərlərin yayıldığı elə ilk gündəcə Fransa mətbuatı həmin maşınların öncə Ukraynaya təklif edildiyini, lakin Kiyevin bu maşınlardan yararsız və real döyüş şəraitində dözümsüz olduğunu əsas gətirərək, imtina etdiyinə dair məlumatlar dərc edildi. İndi isə İrəvanda Paşinyan hökuməti yararsız silahların alışını "piar"a çevirərək Ermənistanın Qərb silahlarına sahib olduğunu bəyan edir. Əslində, İrəvanın bu addımları elə ölkə daxilində gülünc vəziyyət yaradıb. Rəqibləri Paşinyanın Fransadan silah-sursat alışını Rusiyadan raketləri və hərbi təchizatı olmayan "Su-30" qırıcılarının alışı prosesi ilə müqayisə edirlər.

Təbii ki, nə qədər yararsız və zəif olduğu iddia edilsə də, Fransanın məlum addımları bölgədə sülh imkanlarını təhdid edir. Parisin diktəsi ilə aparılan "piar" kampaniyası isə İrəvanda yenidən revanşist qüvvələrin baş qaldırmasına, Azərbaycanın milli maraqlarını təhdid etməsinə doğru aparır. Bu gediş isə bölgədə yenidən gərginliyin artması, Azərbaycanı yeni müharibəyə təhrik etməyə hesablanıb. Vətən müharibəsi, antiterror tədbirləri zamanı aparılan hərbi əməliyyatlar Azərbaycanın beynəlxalq hüquq tərəfindən tanınan, hətta Parisin belə qəbul etmək məcburiyyətində qaldığı suveren ərazilərimizdə və sərhədlərimiz daxilində həyata keçirilmişdi. İndiki gərginlik fonunda isə toqquşmaların sərhəddə yaşanacağı heç kimə sirr deyil. Qarabağ ermənilərinin könüllü köçü ilə bağlı "etnik təmizləmə" oyununun və ittihamlarının da puç olduğunu nəzərə alsaq, Paris Cənubi Qafqazda yeni məkrli planlar qurur.

*Müstəmləkəçi Fransa Qafqaza əl qoymaq istəyir*

*Fransa burada birinci növbədə öz imperialist məqsədlərini, iqtisadi maraqlarını güdür*

*Fransa kimi dövlətlərin yanaşması qərəzli, imperialistdir və işğalçı dövlətləri körükləmək üçün qərəzli addımları ilə diqqət çəkir*

Məqsəd isə sülhü əngəlləmək, hərbi toqquşmalara rəvac verməklə üç dəfə BMT-də uğradığı həzimətin, Bakının Fransanın müstəmləkəçilik siyasətinin ifşası ilə bağlı həyata keçirdiyi tədbirlərin «qisası»nı bu dəfə «Ermənistana təcavüz» adı ilə Azərbaycana qarşı növbəti səlib yürüşü həyata keçirməklə almaq istəyir.

Bakı hər zaman olduğu kimi, prosesləri diqqətlə izləyir, lazımi anda və məqamda öz sözünü deməyi bacarır. Ermənistan isə yenə də özünün ənənəvi siyasətinə sadiq qaldığı üçün Bakının ona təklif etdiyi imkanlardan məhrum olur. Elə «Zəngəzur dəhlizi» layihəsində olduğu kimi. Qərbin yağlı vədləri ilə bağlı isə artıq bir çox təcrübə mövcuddur. Elə bu silahların Ermənistana daşınmasına icazə verən qonşumuz Gürcüstan və Qərbin vəd etdiyi dəstəkdən artıq məhrum



olmaq təhlükəsi ilə üz-üzə qalmış Ukrayna kimi... Azərbaycanın ictimai-siyasi kəsiminin düşüncəsi necədir? Fransanın bölgəmizi təhdid edən bu oyunlarına hansı cavab verilməlidir?

■ **Aydın Hüseynov, Milli Məclisin deputatı:**

- Ermənistan oyuncaq dövlətdir, xarici siyasət konsepsiyası yoxdur. Yarandığı gündən bu və ya digər dövlətlərin əlində oyuncaq olub. Ermənistanın asılı dövlət olduğu beynəlxalq aləmə yaxşı məlumdur. Ona görə də Fransa, müəyyən mərkəzlər öz maraqlarını təmin etmək üçün guya Ermənistana dəstək verib, niyyətlərini gerçəkləşdirmək istəyir. Müstəmləkəçi Fransa Qafqaza əl qoymaq istəyir. Bu, mümkün deyil. Birinci növbədə, Fransa bütün dünyada nüfuzunu itirib. Azərbaycan isə suveren, müstəqil dövlətdir. Azərbaycan iqtisadi, siyasi cəhətdən möhkəmdir. Digər dövlətlər Azərbaycanla siyasi, iqtisadi əlaqələr qurub. Ona görə də Fransanın bütün cəhdləri boşa çıxacaq. Ermənistanı 30 il silahlandırdılar, nə oldu? Kapitulyasiyaya imza ataraq, tamamilə sıradan çıxdı. Ermənistan ordusu fərari ordudur. Ona verilən silahların heç bir əhəmiyyəti yoxdur. Bütün bu proseslər yalnız sülh prosesinə mane olmaq üçün edilir. Reallıq Azərbaycanın tərəfindədir. Fransa öz qərəzli yanaşması ilə uduzacaq.

■ **Musa Quliyev, millət vəkili:**

- Fransanın Ermənistanla bərabər regiona qarşı apardığı siyasət bu ölkənin Qafqazla bağlı məkirli niyyətlərindən qaynaqlanır. Bir imperialist dövlət olaraq, artıq Afrikadan əli çıxan Fransa, Qafqazda yerləşmək üçün Ermənistandan alət kimi istifadə edir. Fransa burada birinci növbədə öz imperialist məqsədlərini, iqtisadi maraqlarını güdür.

Səh. 2

MÜSAHİB

## "Ən maraqlı mənzərə ilə Laçında qarşılaşdıq"



**Reza Degati,**
dünya şöhrətli fotoqraf

***Vətən savaşının Zəfər tarixindən üç il keçir. Mövcud geosiyasi reallıqlar Azərbaycanın 30+3 illik ötən tarixinə yenidən nəzər salıb, əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün daha aktiv addımların atılması zərurətini ortaya qoyur. Düşmən məğlub olsa da, tətikdədir. Bu gün "Zəfər Günü" tarixində Qarabağ həqiqətlərini toplayan tarix yazan, 30 il Qarabağ müharibəsini, ermənilərin Azərbaycanda törətdiyi soyqırımı faktlarını, erməni vandallğını fotolentlərin kadrlarında dünyaya bildirən fotoqraf, şahid dünya şöhrətli fotoqraf Reza Degati "Həftə içi"nə müsahibəsində Qarabağın ötən günü, bugünü və gələcəyinə Zəfər Günündən baxır.***

*Qabağda törədilənlər müharibə təxribatı deyil, bu, qəsdən planlaşdırılmış cinayətdir*

Səh. 3

MÜSAHİB



**Etibar Məmmədov,**
Milli İstiqlal partiyasının lideri

■ Rusiyanın ermənilərdən istifadə planları qüvvədə qalır

■ Bizim bu saat bir üstünlüyümüz var ki, ermənilər torpaqlarımızı könüllü şəkildə tərk ediblər

■ Zəngəzur yolu məsələsi Ermənistanla Rusiya arasında olan məsələdir

Səh. 3

GÜNÜN FOTOSU...



**ABŞ səfiri yenidən Ermənistan-Azərbaycan sərhədində**

GÜNÜN SİTATI

*"Rusiya Azərbaycanın Qarabağa qayıtmaq istəyən ermənilərin hüquqlarının, təhlükəsizliyinin və iqtisadi rifahının təminatı ilə bağlı bəyanatlarını alqışlayır"*



**Mariya Zaxarova,**
Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi

KARİKATURA



**Fransa Ermənistanın başını belə aldadır**

## Vergi Məcəlləsinə dəyişikliklər

**Aydın Hüseynov,**
Milli Məclisin üzvü

Vergi qanunvericiliyində mikrosahibkarlıq subyektləri üçün sadələşdirilmiş vergi ödəyicisi kimi hüquq və vəzifələr müəyyənləşib.

Səh. 5

STATİSTİKA



■ **Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda 100,9 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,5 % çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub.**

Iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,3 % azalıb, qeyri neft-qaz sektorunda isə 3,1 % artıb. ÜDM istehsalının 41,3 %-i sənaye, 9,9 %-i ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,2 %-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,2 %-i nəqliyyat və anbar təsərrüfatı, 18 %-i digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,4 %-ni təşkil edib.



Səh. 5

## Qərb Ukraynanı yarıyolda qoyur

PREZİDENTİN İŞ GÜNÜ

# Prezident İlham Əliyev Mahmud Abbasa məktub göndərib



**Prezident İlham Əliyev Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasa məktub ünvanlayıb. Məktubda deyilir:**

"Hörmətli cənab Prezident, Fələstin Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Keçən il Azərbaycanın Fələstində diplomatik nümayəndəliyinin təsis edilməsi ikitərəfli əlaqələrimizin inkişafı istiqamətində atılmış müsbət addım idi. Tərəfimizdən Fələstində məktəbin inşa edilməsi məsələsi də gündəlikdədir. Biz Qəzzadakı gərginliyin tezliklə aradan qaldırılacağına ümid edirik. Azərbaycan Fələstin məsələsinə münasibətdə daim həmrəylik nümayiş etdirmiş və bu məsələnin BMT-nin müvafiq qətnamə və qərarlarına uyğun olaraq iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Ölkəmiz BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə bundan sonra da dəstək göstərməyə davam edəcəkdir. İnanıram ki, ölkələrimiz arasında xoş ənənələrə malik dostluq əlaqələri və əməkdaşlığımız bundan sonra da uğurla inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, qardaş Fələstin xalqına sülh və əmin-amanlıq diləyirəm".

# Fransadan sülhə zərbə

◂ əvvəli 1-ci səhifədə

Fransanın ardıcıl olaraq Azərbaycan əleyhinə böhtanları, qərəzli çıxışları da bununla bağlıdır. Son günlər Fransanın açıq şəkildə bütün diplomatik, beynəlxalq normaları pozaraq Ermənistana silah göndərməsi heç bir məntiqə, siyasi münasibətlərə, siyasi etikaya sığmır.

Heç şübhəsiz, Fransanın bu hərəkətləri Makronun şəxsiyyəti, şəxsi düşüncələri ilə bağlıdır. Gələn il Fransada seçkilərdir, Makron hakimiyyətdən gedəcək. Ümid edək, ondan sonra ağıllı insanlar orada hakimiyyətə gələr və başa düşərlər ki, Qafqazda əsas, uğurlu əməkdaşlıq edilməli ölkə Azərbaycandır. Azərbaycan belə təhdidləri, təxribatları, aqressiv münasibərləri çox görüb. Bütün bu təzyiqlərin öhdəsindən layiqincə gəlib. İndi Azərbaycan özünün zəfər dövrünü yaşayır, ölkəmiz beynəlxalq siyasətdə də çox güclüdür. Fransanın bu siyasəti iflasa uğrayacaq, ifşa olunacaq. Fransa Brüsseldə keçirilən sülh danışıqlarına əks-təsirini göstərir.

Bu, Fransanın Qafqazda sülh prosesini pozmaq cəhdlərindən biridir. Paris bölgədə müharibə vəziyyətinin uzun müddət qalmasını təmin etməklə öz məqsədlərinə çatmaq istəyir. Bu, uzun müddət davam edə bilməz.

Azərbaycanın təklif etdiyi, Türkiyənin də dəstək verdiyi sülh proqramı Ermənistan tərəfindən qəbul olunacaq. Ermənistanın başqa yolu yoxdur. Fransa regiondan çox uzaqdadır, Ermənistana dəstəyi yalnız epizodik xarakterli olacaq. Ermənistanda da başa düşürlər ki, onların xilası Türkiyə ilə Azərbaycanla iqtisadi əməkdaşlıqdan keçir.

■ **Məlahət İbrahimqızı, millət vəkili:**

- Azərbaycan Avropa ilə ən etibarlı tərəfdaş kimi əməkdaşlıq edir. Azərbaycan Prezidentinin Avropada, eləcə də dünyada böyük nüfuzu var və o, ölkələri dərəcələrə bölən imperialist qüvvələrə qarşı mübarizə aparan qətiyyətli liderdir. Biz Qoşulmama Hərəkatının, eləcə də bir çox beynəlxalq tədbirlərdə də bunun şahidi oluruq. Fransa isə ləkəli bir tarixə malikdir. Fransa Afrika, Asiya xalqlarına qarşı insanlığa yaraşmayan cinayətlər törədib, o ölkələrin əhalisini alçaldıb, kölə halına salaraq onların sərvətlərini sümürüb. Fransa yenə də həmin düşüncədədir. Ancaq unudur ki, artıq XXI əsrdir və dünya başqa reallıqlarla qarşı-qarşıyadır. Dünya II Dünya müharibəsindən sonra İnsan Haqları Bəyannaməsinə imza atıb.

İrqindən, cinsindən, dinindən asılı olmayaraq bütün insanlar bərabərdir. Bir sıra beynəlxalq təşkilatlar daxil olmaqla, Fransa kimi dövlətlərin yanaşması qərəzli, imperialistdir və işğalçı dövlətləri körükləmək üçün qərəzli addımları ilə diqqət çəkir. Fransanın Ermənistanla birlikdə regionda müharibə ocağı yaratmaq cəhdi boşa çıxacaq. Fransa Avropa Birliyində əsas ölkələrdən biridir. Ona görə də Brüsselə təsir edə bilir. Bunun heç bir effekti olmayacaq. Əgər Avropa enerji təchizatında Azərbaycanı əsas strateji tərəfdar kimi qəbul edirsə, onun haqqını qorumağı bacarmalıdır.

Bu gün dünyada gedən müharibələr, əsasən, enerji, logistika layihələri üzərində aparılır. Azərbaycan bu layihələrin mərkəzində dayanıb. Makron Fransası nə etməsindən asılı olmayaraq, regionda gedən sülh prosesinə maneə yarada bilməyəcək. Biz geriyə dönülməyən yoldayıq. Ərazi bütövlüyümüzü, sərhədlərimizi bərpa etmişik. Bundan sonra Makron kimilər nə edir-etsin, reallığı dəyişə bilməyəcək, prosesləri bu yoldan geriyə çevirə bilməyəcəklər.

✍ *Tahirə*

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Fələstin məsələsinə daim diqqət ayırmışıq

**Azərbaycan Respublikasının Birinci xanımı Mehriban Əliyevanın noyabrın 15-də İstanbulda keçirilən dövlət və hökumət başçılarının xanımlarının "Fələstin üçün tək ürək" toplantısının iştirakçılarına müraciəti olub. Birinci xanım Mehriban Əliyevanın müraciətini təqdim edirik:**



## Gündəm

- Hörmətli Əminə xanım, Hörmətli toplantı iştirakçıları, İlk növbədə Türkiyə Respublikasının Birinci xanımı, hörmətli Əminə Ərdoğana bu tədbirdə iştirak etmək üçün dəvətinə görə dərin təşəkkürümü bildirirəm.

Hörmətli Əminə xanımın humanitar və sosial sahələrdə fəaliyyətini, o cümlədən hərbi münaqişələrdən əziyyət çəkən mülki şəxslərə, qadınlara və uşaqlara yardım göstərilməsi məsələlərinə verdiyi töhfəni xüsusi qeyd edir və bunu yüksək qiymətləndirirəm.

Bu il yaranmasının 100-cü ildönümünü qeyd edən Türkiyə Respublikası bütün sahələrdə mühüm nailiyyətlər əldə etmiş, beynəlxalq aləmdə böyük nüfuza malik qüdrətli dövlətdir. Qardaş Türkiyə daim sülhün və ədalətin yanında olaraq bölgədə və dünyada sabitliyin və təhlükəsizliyin təmin olunmasına önəmli töhfə verir. Azərbaycan-Türkiyə qardaşlığı və birliyi bu gün özünün ən yüksək səviyyəsindədir.

Hörmətli toplantı iştirakçıları, İsrail-Fələstin münaqişə zonasında gərginliyin miqyasının gündən-günə genişlənməsi və daha böyük insan faciəsinə səbəb olması ciddi narahatlıq doğurur. Ürək ağrısı ilə izlədiyimiz dözülməz insan iztirabları hər birimizi dərindən sarsıdır. Bu silahlı qarşıdurmadan ən çox əziyyət çəkənlərin mülki şəxslər, xüsusilə də qadınlar və uşaqlar olması olduqca üzücüdür. Hərbi əməliyyatların aparılması zamanı beynəlxalq humanitar hüquqa riayət edilməsi zəruridir. Mən həlak olanların yaxınlarına başsağlığı verir, yaralananların tezliklə şəfa tapmasını diləyirəm.

Azərbaycan hərbi əməliyyatların dərhal dayandırılması ilə bağlı çağırışları dəstəkləyir və son gərginliklə əlaqədar oktyabr ayında BMT Baş Assambleyasında qəbul edilmiş qətnamənin lehinə səs vermişdir. Ölkəmiz beynəlxalq hüquqa və BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq, İsrail-Fələstin münaqişəsinin "iki dövlət" prinsipi əsasında həllinin tərəfdarıdır. 2019-ci ildən etibarən Qoşulmama Hərəkatına sədrliyimiz dövründə Fələstin məsələsinə daim diqqət ayırmışıq. İnanıram ki, bu il Ramallah şəhərində ölkəmizin Təmsilçilik Ofisinin fəaliyyətə başlaması Azərbaycan-Fələstin əlaqələrinin inkişafına təkan verəcəkdir.

> "
> *Ölkəmiz beynəlxalq hüquqa və BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq, İsrail-Fələstin münaqişəsinin "iki dövlət" prinsipi əsasında həllinin tərəfdarıdır*

Son on il ərzində ölkəmiz BMT-nin Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyi xətti ilə dəfələrlə humanitar və maliyyə yardımı göstərmişdir. Eyni zamanda, Azərbaycan Fələstinə siyasi və maliyyə dəstəyinin cəlb edilməsi məqsədilə bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etmişdir. Bunların sırasında Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransını və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransını qeyd etmək istərdim. Azərbaycan dövlətinin verdiyi təqaüd əsasında fələstinli gənclər ölkəmizdə ali təhsil alırlar. Azərbaycan tərəfindən Fələstində inşa ediləcək məktəb Fələstin xalqına dəstəyimizin növbəti təzahürü olacaqdır.

Geniş səlahiyyətlərə malik beynəlxalq təsisatların üzləşdiyi hazırkı böhran vacib məsələlərin həllini əngəlləyir. Dərin kökləri olan bu böhran başqa bir müzakirə mövzusudur. Qeyd etmək istəyirəm ki, müasir dövrdə hərbi münaqişələrin həll olunmaması böyük ölçüdə beynəlxalq hüququn selektiv şəkildə tətbiq olunmasından irəli gəlir. İkili standartlar və qərəzli yanaşma bu böhranın daha da kəskinləşməsinə şərait yaradır.

İctimai rəyin çaşdırılması və beynəlxalq hüququn manipulyasiyası üçün qərəzli media platformaları vasitəsilə yalan hekayələr yayılır. Bundan daha təhlükəlisi isə mənəvi dəyərlərdən manipulyasiya məqsədilə sui-istifadə olunması hallarıdır.

Ermənistanın Azərbaycana qarşı 30 il davam edən təcavüzü nəticəsində ərazilərimiz işğal olunmuş, bir milyona yaxın soydaşımız öz dədə-baba yurdlarından didərgin düşmüş, 300-dən artıq şəhər və kəndimiz darmadağın edilmiş, dini və mədəni irsimiz dağıdılmışdır. Vaxtilə işğal edilmiş torpaqlarımızda 67 məsciddən 65-i yerlə-yeksan edilmişdir.

Təəssüflə qeyd etmək istərdim ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməsi 27 il kağız üzərində qaldı. Azərbaycan 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarını özü işğaldan azad etdi və bu ilin sentyabr ayında antiterror əməliyyatı ilə Ermənistan silahlı qüvvələrinin qalıqlarının mövcudluğuna və separatizmə son qoyaraq suverenliyini tam bərpa etdi.

Çıxışımın sonunda vurğulamaq istərdim ki, ən çətin məqamlarda belə bəşəriyyət mərhəmət hissini itirməməlidir. Buna görə də, hörmətli Əminə xanıma bu vacib tədbiri təşkil etdiyinə və dəvətinə görə bir daha dərin minnətdarlığımı bildirirəm.

# Sülh Avropaya sərf etmir

***Regionun geosiyasi mənzərəsi Avropa və Qərbin yaratdığı gündəmlə birgə çalxalanır. 44 günlük müharibə zəfərindən sonra Cənubi Qafqazda yaranan yeni reallıqları həzm edə bilməyən Avropa Fransası və digər erməni havadarları vəziyyəti nəzarətdə saxlamaq üçün yenə də Ermənistanı silahlandırır. Avropa və Qərbin sərgilədiyi siyasət kontekstində mövcud durum birmənalı qarşılanmır. Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən Milli Məclisin deputatı Arzu Nağıyev mühüm məqamlara diqqət çəkib.***

## Müsahib

***- Fransanın Ermənistanı silahlandırması, bu silahların keyfiyyəti, Hindistanın da bu siyahıda yer alması bölgə üçün nə vəd edir?***

- Bu, Fransanın birinci məkrli siyasəti deyil. Məlum məsələdir ki, Fransa daim Ermənistanın havadarı qismində çıxış etməyə çalışıb. Burada onun siyasi, iqtisadi və hərbi maraqları olub. Torpaqlarımız işğal altında olanda belə, onlar öz şirkətləri vasitəsilə müxtəlif dividendlər əldə edib, ciddi vəsaitlər qazanıblar. Bu qazanclar məlum məsələdir ki, indi yoxdur, itirilib. Bunlar, sanki yenidən eyni məsələlərə qayıtmaq və itirilmiş nüfuzlarını bərpa, Ermənistandan istifadə etməyə çalışırlar.

Ermənistanın silahlandırılması məsələsi maraqlı dövlətlərin diqqətində olan bir prosesin davamıdır. Məlumdur ki, Ermənistan və Fransa müdafiə nazirləri arasında bir memorandum imzalanmışdı. Ona uyğun olaraq 24 ədəd bastion artıq gəlib. Bundan əlavə, jandarm qüvvələri üçün atıcı silahlar gəlmişdi. Əsas məsələ də ondan ibarətdir ki, Fransa və digər qüvvələr bu silahları təqdim etməklə Ermənistanı boyunduruğa salırlar. Bu silahların borcu ödənilməlidir. İqtisadiyyatı tənəzzülə uğramış bir dövlət bu silahların qarşılığında nə qədər ödəmələr etməlidir. Bu, təbii ki, Ermənistan üçün problemdir və artıq həmin ölkələrin müstəmləkə siyasətinin tilovuna düşməsidir. Bu prosesdə Hindistanın da iştirak etməsi təəssüf doğurur. Atılan bu addımlar Azərbaycanı qorxutmur. Bizim hərbi sahədə bir çox ölkələrlə, eləcə də İsraillə müqavilələrimiz var. Həmin müqaviləyə uyğun olaraq havadan müdafiə sistemi alınır. Bu sahəyə milyardlarla pul ayrılır. Məqsəd Azərbaycan ərazisinə, suverenliyinə qarşı təhdidlərin qarşısının alınmasına yönəlib. Hesab edirəm, Ermənistana verilən silahlar Azərbaycanın təhlükəsizliyinə təhdid deyil. Sadəcə olaraq, bu, regionda istər Rusiyaya qarşı, istər Türkiyəyə qarşı atılan addımlardır. Məlumdur ki, Türkiyə, Rusiya sərhədi NATO sərhədidir. Rusiya da heç zaman imkan verməz ki, onlar gəlib burada özlərinin istədiyi kimi hərbi əməliyyatlar aparsınlar və yaxud regionu hərbləşdirsinlər. Birmənalı şəkildə Avropa Birliyinin, eyni zamanda, min kilometrlərlə buradan aralıda olan Fransanın məqamı, məqsədi Cənubi Qafqazda nüfuzunu bərpa etməsidir.

***- Ermənistanin silahlandırılmasının bölgə üçün hansı təhdidləri var?***

- Cənubi Qafqaz bölgəsində 6 dövlətdir. Bu, təbii ki, balansın pozulmasıdır. Əgər beynəlxalq təşkilatlar, BMT bölgənin yenidən bir müharibə, silah ocağına çevrilməsini istəmirlərsə, bunun qarşısı alınmalıdır. On doqquz sentyabr antiterror tədbirindən sonra iki aydır, bölgədə atəşkəs pozulmur, şəhid, itkilər verilmir. Görünür, bu vəziyyət çoxlarını qane etmir. Yenidən bu münaqişəyə qayıtmaq, yenidən siyasi, iqtisadi cəhətdən dvidendlər götürmək niyyəti güdürlər.

> "
> *Məqsədləri Ermənistanı boyunduruğa salmaq, ondan müxtəlif işlərdə istifadə etməkdir*

***- Ermənistanin KTMT demarşı və Rusiyanın cavabi necə olacaq? Ümumiyyətlə, Moskva Ermənistanin özünün təhlükəsizlik çətirindən çıxmasına imkan verəcəkmi?***

- Rusiya buna birmənalı reaksiya verəcək. Fransa nə qədər bölgəyə gəlməyə çalışsa da, qeyd etdiyim kimi, burada söhbət NATO sərhədlərindən, eyni zamanda, Ermənistan ərazisindəki Rusiyanın bazalarından gedir. Buna görə də Rusiya hansısa Qərb dövlətinin gəlib orada ordu qurmasına, müəyyən addımlar atmasına imkan verməz. Bunların qarşılıqlı cavabı olacaq.

Ermənilər, hətta Azərbaycanla münaqişədə olanda da ciddi-cəhdlə KTMT-ni bu və ya digər şəkildə prosesə cəlb etməyə çalışırdı. KTMT buna getmədi, çünki hər bir dövlətin ayrı-ayrılıqda Azərbaycanla münasibəti var və indi də bir çox bəhanələrlə bundan istifadə etməyə çalışırlar. Ona görə də Rusiya buna cavab verəcək. Fransa sərhəddə əsas jandarm briqadarı yaratmaqla sərhədin nəzarətini öz əlinə almaq istəyir. Unutmasınlar ki, sərhədi qoruyan Rusiya Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunlarıdır. Digər məsələ ondan ibarətdir ki, Ermənistan KTMT üzvlüyündən çıxsa, itirəcəyi çox şey var. Sadəcə olaraq, Ermənistan və Fransa Qərbə yarınmaq üçün bu addımları atırlar.



**Arzu Nağıyev,**
Milli Məclisin deputatı

***- İran sərhədlərində Fransa və ABŞ-ın timsalında NATO silahlarının peyda olmasına necə reaksiya göstərəcək?***

- NATO silahları artıq sərhədinə gəlirsə, İran da öz fikrini bildirməlidir. Hiss olunur ki, bu, razılaşdırılmış məsələdir. Fransa ilə İran arasında münasibət o qədər də gərgin deyil. Bu da nəzərə alınacaq. Bu, ümumi regiona təsir edən amillərdir.

***- Ermənistandaki Rusiya bazalarının taleyi necə olacaq?***

- Rusiya bazalarının taleyini ermənilər həll etmir. Qeyd etdiyim kimi, məlum müqavilələr əsasında istər "İrabuni", istər 102 saylı baza olsun, bunların hamısı müqavilələr şəklində orada yerləşdirilib. Bu, Rusiyanın məhz özünün şərti sərhədini qorumaq üçün əsas addımdır. Rusiyanın məhz oradan bazalarını çıxarması inandırıcı görünmür.

***- Azərbaycan hərbi-siyasi baxımdan hansı cavab addımları atmalıdır?***

- Azərbaycan tam şəkildə özünün xarici siyasətini aparmaqdadır. Eyni zamanda, son bəyanatımızda sülh müqaviləsi prinsipinə uyğun olaraq beş təklif irəli sürmüşdük ki, onun cavabını gözləyirik. Ermənistan gətirib ora nə qədər silah-sursat yığsa da, bizim öz suverenliyimizi, ərazi bütövlüyümüzü qorumağımıza hər cür imkanımız var.

***- Avropa İttifaqı və ABŞ Ermənistana hərbi dəstək vəd edir. Ermənistan Ukraynanın taleyini yaşaya bilərmi?***

- Ukraynada NATO özünün ərazisini genişləndirmək vasitəsilə artıq gəlib Rusiyanın müəyyən vilayətlərinə çıxmağa çalışırdı. Düşünmürəm ki, Ukraynada əsas məram-məqsəd o torpaqları tam əldə etmək, dənizdən-dənizə buferzona yaratmaq olsun. Tale Suriyada necə təkrarlanıbsa, burada da belə təkrarlana bilər. Hər kəs silahlarını ora verməklə müxtəlif sınaqlar keçirirlər. Sadəcə, adi vətəndaşın problemləri böyüyür.

***- Bölgədə yeni müharibə ehtimalı və sülh imkanlarının perspektivlərini necə görürsünüz?***

- Biz sülh müqaviləsinin imzalanması istiqamətində addımlar atırıq və beynəlxalq təşkilatlar da "etnik təmizləmə", eyni zamanda "qaçqın" məsələlərini ortaya salmaqla bir daha bunu qabartmağa çalışırlar. Qeyd etdiyim kimi, iki aydır, silahdan istifadə olunmur. Görünür, bölgədə sülhün bərqərar olması, Avropaya, Qərbə xeyir etmir. Onlar münaqişələrdən istifadə edərək, öz məkirli planlarını həmişə həyata keçiriblər. Bütün bunların qarşısı alınmalıdır.

✍ *Tahirə Qafarlı*

# “Ən maraqlı mənzərə ilə Laçında qarşılaşdıq”



**Reza Degati,**
dünya şöhrətli fotoqraf

**Vətən savaşının Zəfər tarixindən üç il keçir. Mövcud geosiyasi reallıqlar Azərbaycanın 30+3 illik ötən tarixinə yenidən nəzər salıb, əsl həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün daha aktiv addımların atılması zərurətini ortaya qoyur. Düşmən məğlub olsa da, tətikdədir. Bu gün “Zəfər Günü” tarixində Qarabağ həqiqətlərini toplayan tarix yazan, 30 il Qarabağ müharibəsini, ermənilərin Azərbaycanda törətdiyi soyqırımı faktlarını, erməni vandallğını fotolentlərin kadrlarında dünyaya bildirən fotoqraf, şahid dünya şöhrətli fotoqraf Reza Degati “Həftə içi”nə müsahibəsində Qarabağın ötən günü, bugünü və gələcəyinə Zəfər Günündən baxır.**

## Müsahib

***- Öz missiyasını yerinə yetirən fotoqraf Reza Degati bu gün Qarabağda hansı yolla irəliləyir, hansı işlərin üzərində çalışır?***

- Mən işlərimə yenə də davam edirəm. İki gün olar, Qarabağdan gəlmişəm. Bu dəfə 43 ölkədən xarici səyyahları könüllü olaraq Qarabağa apardım, onları müşayiət etdim. Onlara Qarabağda baş verənlər haqqında, Xocalı, bu şəhərin yaşadığı acılar, soyqırımı və digər məlumatları verdim. Səyyahları Şuşada tarixi abidələrin erməni vandallığına məruz qalan dağıntıları ilə yanaşı, bir çox rayonlarda aparılan bərpa işləri ilə tanıs etdim.

İşğaldan azad edilən ərazilərdə Azərbaycanın apardığı bərpa işlərini yaxından izləmək maraqlı idi. Düşmənin, işğalçının viran qoyduğu torpaqları azad edən əsl sahibi Azərbaycan dövləti, xalqı əraziləri dirildir, gözəlləşdirir. Ən maraqlı mənzərə ilə Laçında qarşılaşdıq. Laçında insanlar öz evlərinə qayıdıblar. Bunu dünyaya göstərmək maraqlıdır.

Eyni zamanda, Qarabağın acısını, ermənilərin törətdiyi dağıntıları hələ də fotolentə köçürürəm. Bu dağıntılar böyükdür, onların hamısını lentə köçürmək hələ uzun illər aparacaq. Eləcə də öz yurduna qayıdan insanların həyat hekayələrini dinləmək, haradan gəldiklərini öyrənmək, hansı həyatı yaşadıqlarını bilmək, onları fotolara köçürmək mənə çox maraqlıdır.

***- Azərbaycanın Zəfərə doğru gedən yolundan siz də öz fotolarınızla keçdiniz. Bu gün Qarabağa Zəfər Günündən baxsaq, fotoaparatınızın foksu nəyə tuşlanıb?***

- Mən 43 ildir ki, dünya müharibələrini çəkirəm. Müharibə, dağıntılar, o dağıntıların yaratdığı xarabalıqlar, yarımçıq qalmış insan ömürləri Bunları çəkmək mənə xoş deyil. Elə adamlar var, müharibə şəraitində işləmək, çəkməyi sevir, bu, onlara xoşdur. Müharibəni, onun dağıntılarını, ölümlərini çəkmək mənə xoş deyil. Mən sülhü çəkmək istəyirəm. Ona görə də müharibəyə gedib, onun fraqmentlərini lentə köçürəndə daha çox müharibənin acısını insanlara göstərib, onları qırğınlara son qoymağa çağırıram.

Həmişə düşünürəm ki, iki qonşu dövlət arasında axtardığım sülh yolunu nə qədər də çətin olsa tapmaq mümkündür. Müharibə edən ölkələrin sonradan sülh, qarşılıqlı əməkdaşlıq şəraitində yaşamasını göstərən nümunələr də var. Ümid edirəm, tezliklə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalanar. Bir zaman gələcək, Qafqaz xalqları hamısı bir yerdə rahat yaşayacaqlar. Bu gün Zəfər yolunda mənim fotoaparatımın foksu sülhə tuşlanıb, məhz bu ideya üzərində çalışır.

***- Zəfərə tuşladığınız fotoaparatın foksunda daha nələri görürsünüz?***

- Bu gün hamı Zəfər Gününü sevinc, qürurla qeyd edir. Unutmalı deyilik ki, iki qrup insanlar var ki, hamı onlara borcludur. Əgər onlar olmasaydı, bu Zəfər də olmayacaqdı. Təbiidir ki, bütün bu Zəfərin üstündə Azərbaycan Hökuməti, Azərbaycan Prezidenti durur. Bir də adları “Milli Qəhrəman” olan, 1992-ci ildən bu yana Qarabağ müharibəsində şəhid olanların hamısının adları, şəkilləri var. İnsanlar onları xatırlayır, anır. Bir qrup adam da var ki, onların adını “Səssiz Milli Qəhrəmanlar” qoymuşam. Bu “Səssiz Milli Qəhrəman”lar şəhidlərin anaları, ataları, bacıları, qardaşları, uşaqları, ailələridir. Düzdür, hamı onlara təsəlli verir, onlara yetişdirdiyi qəhrəmana görə “Sağ ol” deyir. Amma yenə də uşağa ata, bacıya qardaş, valideynə övlad lazımdır. Onlar bu itkilərini ömürlərinin axırına qədər yaddan çıxara bilməyəcəklər. Mən istərdim ki, onlara da bir orden təsis edilsin. Onlara “Səssiz, Adsız Milli Qəhrəman” adı verilsin.

***- Qarabağda zəfərə gedən yolda ölüm, dağıntılar, qaçqınlıq həyatı yaşayanlar bu gün sizin fotolarınızda dünya ictimaiyyətinə necə təqdim olunur?***

- Əslində, bütün Qarabağ işğal altında çox ağır bir dövrü yaşadı və bu gün də işğalın ağır nəticələri qalır. Qarabağda törədilənlər müharibə təxribatı deyil, bu, qəsdən planlaşdırılmış cinayətdir. Ermənilərin törətdiyi bu zülmlərə baxanda, belə aydın olur ki, onların psixoloji problemi var və bu həll olunmasa, onlar bu iddiadan əl çəkə bilməyəcəklər. Ona görə, mən 3 ildir şəhər-şəhər, kənd-kənd gəzib, həm şəkil, həm video, həm yerdən, həm göydən dronlarla çəkilişlər aparıram. Bu faktlar, ilk növbədə, tarix üçün qalmalıdır. Bu faktlar dünya tarixində olmalıdır ki, bu vəhşilikləri törədənləri tanısınlar, bilsinlər.

Eyni zamanda, bu gün aparılan bərpa işləri maraqlıdır. Ermənilər 30 il işğal etdikləri əraziləri dağıtmaqdan başqa bir iş görməyiblər. O yerləri doğma bilən, ata ocağı kimi sevən adamlar, üç ildə o yerləri yenidən dirçəldib, böyük işlər görüblər. Əminəm ki, ermənilər o ərazilərə mina basdırmasaydı, Azərbaycan üç ildə etdiyindən çox, 10 qat bərpa işləri apardı. İndi məcburi köşkünlərin hamısı evlərində idi. Məsələn, Laçın şəhərində mina yox idi. Orada mina olmadığına görə, 1 il ərzində Azərbaycan Hökuməti, şirkətləri oranı elə təmizləyib gözəlləşdiriblər ki, elə bil, İsveçin gözəl şəhərlərindən biridir. İnsanlar ora qayıdırlar. Onlara evlərinin açarları verilir. İnsanlar öz evlərinə girəndə isti suyu, mətbəxi, yorğan-döşəyini yerində görür. Girir, yaşayır.

***- Zəfər fotolarının rəngi nədir?***

- Həqiqətin rəngi nədirsə, o Bir insanı, milləti, məmləkətin adamlarının 100 il fikirlərini, inanclarını yalanlarla sarsıtdınsa, bunu onların başından çıxarmağa illərlə vaxt lazım olur. Nə yaxşı ki, fotolar dünyada ortaya böyük əsərlər qoyur. Nə yaxşı ki, bu vəziyyətdə həmin fotoları hazırlayıb dünyaya göstərə bilirəm. Dünya insanları fotolara inanırlar. Qırx ildir adım elə bir yerdə dayanır ki, tamaşaçı dediyim sözə inanır. Hesab edirəm, bu mövzu daim dünyaya çatdırılmaldır və bu gün mən buna çalışıram.

***- Sizcə, Qarabağ müharibəsində həqiqətin qalib gəlməsinin əsası nə oldu?***

- Dünyada həmişə həqiqəti aşkar etmək çətin olub. İndi də çətindir. Hər yerdə, hər bir ölkədə, məmləkətdə kimsə haqqı deyəndə, müəyyən qrup insan var ki, onun haqqının eşidilməsini istəmirlər

Bu işə başlayanda üç il türmədə olmuşam, beş ay mənə işgəncə verilib. 43 ildir ki, sürgün həyatı yaşayıram. Amma 30 ildir Qarabağ barəsində həqiqətləri Fransada, dünyanın digər ölkələrində göstərirəm. Buna görə, erməni lobbisi mənə psixoloji, maddi təzyiqlər göstərir. İnternetdə haqqımda çox pis yazır, yaxud sərgi olanda gəlib dağıdırlar, cırırlar.

Bir də var görünməyən, maliyyə təzyiqləri. Məsələn, biləndə ki, hansısa bir muzeydə, qalereyada sərgim olacaq, ondan əvvəl həmin yerlərin rəhbərliyinə hədə-qorxu gəlirlər ki, bu sərgi baş tutmamalıdır. Ermənilər mənim çox sərgilərimə təzyq edib, olmasına imkan verməyiblər. Əlbəttə ki, təzyiq qarşısında işə davam etmək mənə çətindir.

> “
>
> *Mən onların adını “Səssiz Milli Qəhrəmanlar” qoymuşam*
>
> *Qabağda törədilənlər müharibə təxribatı deyil, bu, qəsdən planlaşdırılmış cinayətdir*



***- Reza bəy, deyirsiniz ki, indi Qarabağda son 30 ildə baş verənlərlə bağlı həqiqətləri dünyanın diqqətinə çatdırmaq hərzamankından daha vacibdir. Niyə belə düşünürsünüz?***

- İndi Azərbaycanın əlində erməni vandallığını, soyqırımlarını, dağıntılarını göstərən bütün sənədlər var. Ermənilər insanların başına nə oyunlar gətiriblərsə, hansı təxribatları törədiblərsə, hamısı Azərbaycanın ovcundadır. Bunu göstərmək Azərbaycanın tarixi məsuliyyətidir.

Mən tarixi fotolarla yazan adamam. Bütün bunların hamısını göstərməliyik. Dünya burada nə olduğunu bilməsə, ona inanmasa, davamlı sülh olmayacaq. Bunu ermənilərə, erməni diasporlarına göstərməliyik. Erməni lobbisi həmişə özünü elə göstərib ki, guya türklər onlara qarşı zülmlər törədiblər. Həqiqətləri dünyaya çatdırmalı, inandırmalıyıq. Bir adamın çirkin, yanlışını özünə göstərib səhv olduğunu deməsən, o, həmin işini təkrar edə bilər. Ona görə də əlimizdə olanları dünyaya göstərməliyik ki, bu vandallıq yenidən başlamasın.

*✍ Tahirə Qafarlı*

## Müsahib

***Azərbaycanda 1988-1991-ci illərdə SSRİ imperiyasına qarşı milli azadlıq mübarizəsinin fəal iştirakçılarından biri, Milli İstiqlal partiyasının lideri Etibar Məmmədovla hafta.-az üçün bu dəfəki söhbətimizdə Rusiyanın yaxın və uzaq gələcəkdə Qarabağdan könüllü çıxmış, sayları guya 100 mindən çox olan erməni köç kütləsindən yenə də Azərbaycana qarşı hansısa məqsədlər üçün istifadə edə bilməsi ehtimalından, Qafqazda erməni məsələsinin bitib-bitməməsindən, bəzi yerli və xarici şərhçilərin guya Kremlin dolayısıyla rəsmi Bakını Zəngəzur yolunun açılması üçün Ermənistanla növbəti savaşa təhrik etməsi iddiasından və s. bəhs etdik.***



**Etibar Məmmədov,**
Milli İstiqlal partiyasının lideri

# “Böyük Ermənistan” xəstəliyi hələ bitməyib

***- Etibar bəy, ixtisasca tarixçi olan bir şəxs kimi sizə daha yaxşı məlumdur ki, öz tarixi boyu, o cümlədən 1988-1994-cü illərdə Rusiya imperiyası qaçqın-köçkün insan kütlələrinin enerjisindən öz maraqları naminə məharətlə istifadə edib. Onlardan həm hakimiyyət dəyişikliyi, həm də separatçı hərəkatların yaradılması üçün yararlanıb. 1988-ci ildə Sumqayıtda, 1990-cı ilin yanvarında Bakıdakı “erməni talan”larını “KQB” həm də Ermənistandan zorla qovulmuş insan kütlələrinin etiraz enerjisindən yararlanaraq törədib. Sizcə, Moskva Qarabağdan könüllü çıxmış, sayları guya 100 mindən çox olan erməni köç kütləsindən yaxın və uzaq gələcəkdə yenə də Azərbaycana qarşı hansısa məqsədlər üçün istifadə edə biləcəkmi?***

- Ermənilər tərəfdən təhlükə həmişə olub və olacaq da. Ancaq bizim bu saat bir üstünlüyümüz var ki, ermənilər torpaqlarımızı könüllü şəkldə tərk ediblər. Və onların guya Azərbaycan ərazisindən zorakılıqla çıxarılması haqda beynəlxalq təşkilatların əlində heç bir dəlil-sübut yoxdur. BMT-nin Yuxarı Qarabağa gəlmiş missiyası da təsdiq etdi ki, orada mülki erməni əhaliyə qarşı heç bir sərt davranış, təpki olmayıb. Ona görə də onların könüllü getməsi faktı təsdiq olunub. Qaldı həmin ermənilərin qayıtmasıyla bağlı digər məsələlərə, əgər qayıtmaq istəsələr, bu haqda şərtləri artıq Azərbaycan tərəfi qoyur. Və şərtlər də əsasən ondan ibarətdir ki, əvvəla, həmin ermənilər Azərbaycana qarşı hərbi cinayətlərdə iştirak etməmiş olsunlar, ikincisi, 1991-ci ilədək keçmiş Dağlıq Qarabağ ərazisində həqiqətən qeydiyyatda olaraq yaşamış olmalıdırlar, üçüncüsü də Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər. Yəni qayıtmaq istəyənləri tam şəkildə rədd etmək olmaz, deyilən şərtlərə uyğun olan müəyyən hissə qayıda bilər. Sonrakı mərhələdə də onları tam nəzarətdə saxlamaq, məncə, mümkün olacaq. Görünən odur ki, ermənilərin sovet dövründəki kimi kütləvi şəkildə Azərbaycan ərazisində yaşaması ehtimalı yoxdur. Yəni, orada çox sayda erməninin yaşamayacağı halda Moskva onlar vasitəsi ilə hansısa təhlükə təşkil edə bulməz. İndiki halda şərtləri Azərbaycan diqtə edir. Ona görə də hesab edirəm ki, hazırda Qarabağdan köçmüş erməni kütləsinin Azərbaycana qarşı elə bir ciddi təhlükəsi yoxdur...

***- Azərbaycan Qarabağda separatizmi faktiki bitirdi və bununla xəstə ermənizm ideologiyasına sarsıdıcı zərbə vurdu. Bəs, görəsən, ümumiyyətlə, Qafqazda erməni məsələsi bitdimi? Ermənilərin “Böyük Ermənistan” xəstəliyi bir daha baş qaldıracaqmı? Rusiya buradan çəkilməyincə bu problemin bitməsinə imkan verərmi?***

-Yox. Hesab edirəm ki, Qafqazda “Böyük Ermənistan” xəstəliyi hələ də bitməyib. Ermənilərin Gürcüstana da ərazi iddiaları var. Hətta, Rusiya tərəfindən belə bir plan var ki, Qarabağdan köçürülmüş ermənilər Abxaziyanın ərazisində yerləşdirilsinlər və artıq orada da müəyyən çoxluq təşkil etsinlər. Hazırda isə Abxaziyanın bütün infrastrukturu, iqtisadiyyatı Rusiyanın əlində, nəzarətindədir. Erməniləri də orada yerləşdirməyə çalışırlar ki, Gürcüstan ərazisində, Qafqazda yeni bir güclü təsir bazası da yaratsınlar. Bir sözlə, Rusiyanın, eləcə də digər beynəlxalq güclərin ermənilərdən istifadə imkanları və planları hələ qüvvədə qalır...

***- Son vaxtlar bəzi şərhçilər iddia edir ki, 2020-ci ilin 44 günlük savaşının sonunda Qarabağa Rusiyanın yox, Avropanın sülhməramlıları gəlsəydi, biz Yuxarı Qarabağı yurisdiksiyamıza qaytarmağa nail olmaz və həmin sülhməramlıları 100 il bundan sonra da ərazimizdən çıxarmağa nail olmazdıq. Siz nə düşünürsüz bu haqda?***

- Bəli, düşünürəm ki, bu, doğru baxışdır. Mən də hesab edirəm ki, əgər Qarabağda Rusiyanın deyil, beynəlxalq təşkilatların və ya digər dövlətlərin sülhməramlı qüvvələri yerləşdirilsəydi, onları Azərbaycan ərazisindən çıxarmaq praktiki cəhətdən qeyri-mümkün olacaqdı...

***- Hansı səbəbdən? Axı beynəlxalq təşkilatlar, ABŞ, Avropa və digər regionların aparıcı dövlətləri də daim bizim ərazi bütövlüyümüzü tanıyıb və dəstəkləyiblər...***

- Bəli, onlar ərazi bütövlüyümüzü tanıyıblar və tanıyacaqdılar. Ancaq necə ki, əvvəlki 30 ilə yaxın dövrdə Azərbaycanı faktiki olaraq keçmiş Dağlıq Qarabağdakı separatçı erməni rejiminin müstəqilliyini tanımağa təhrik edirdilər, orada silahlı qüvvələrini yerləşdirdikdən sonra bu tələblərini tam şəkildə rəsmiləşdirəcəkdilər...

***- Bəs hazırda münaqişənin bir tərəfinin faktiki olaraq aradan çıxmasından sonra da Qarabağda qalan Rusiya“sülhməramlı”larının məlum bəyanatda nəzərdə tutulmuş tarixə, yəni 2025-ci ilədək Azərbaycanın suveren ərazisindən çıxmasına nail ola biləcəyikmi?***

- Rusiya “sülhməramlı”ları, demək olar ki, Qarabağı tərk ediblər. Qalıb bunun rəsmiləşdirilməsi...

**- Amma sizin də yaxşı yadınızda olar, 2020-ci ilin sonu və 2021-ci ilin əvvəllərində Rusiyanın bəzi politoloq, siyasətçi və hətta Duma üzvləri, o cümlədən Vladimir Jirinovski belə fikirlər səsləndirirdilər ki, Rusiya qoşunları Azərbaycanın Qarabağ torpaqlarına daimi qalmaq üçün daxil olub...**

- Təbii ki, Moskvadakı bir sıra siyasətçi və deputatların imperiya xəyalları həmişə olduğu kimi, indi də qalır və davam edəcək...

***- Etibar bəy, Zəngəzur yolu və ya dəhlizi məsələsi son vaxtlar daha da aktuallaşır. Bəzi yerli və xarici şərhçilərin iddiasına görə Moskva dolayısıyla Azərbaycanı Zəngəzur yolunun açılması üçün Ermənistanla növbəti savaşa təhrik edir. Sizcə, hazırkı geosiyasi durumda belə bir müharibə bizə lazımdırmı?***

- Xeyr. Azərbaycan belə bir müharibə etməyəcək və Zəngəzur yolunu da hərb yolu ilə açmayacaq. Çünki, buna alternativ olan İran ərazisindən Naxçıvana keçəcək yolun çəkilməsi haqda artıq saziş imzalanıb. Və bu, bir alternativ variant kimi Azərbaycana sərf edir. Belə bir halda pis duruma düşən yenə də Ermənistan olacaq. Çünki İrandan keçən həmin yol açılsa, bu ölkə tamamilə qapalı vəziyyətdə qalacaq və çıxış yolu da, demək olar ki, olmayacaq... Ermənistanın təkcə Gürcüstan ərazisindən Rusiyaya bir çıxış yolu var, o da yalnız ilin müəyyən vaxtlarında işləyir, payız-qış aylarında oradan keçid çox çətin olur. Bu səbəbdən də bu ölkənin iqtisadiyyatına tələb olunan loqistika həcmini təmin edə bilmir... Amma Rusiyaya Zəngəzur dəhlizi lazımdır. Odur ki, Kreml də 10 noyabr üçtərəfli bəyanatına uyğun olaraq Ermənistandan həmin yolun açılmasını tələb edir. Çünki həmin sənəddə açıq-aydın yazılıb ki, Ermənistan dövləti Zəngəzur yolunun açılmasını təmin etməli və o yola nəzarəti də Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları təmin etməlidir... Ermənistan da ondan imtina edirsə, deməli, Zəngəzur yolu məsələsi Ermənistanla Rusiya arasında olan məsələdir. Bununla bağlı İrəvana Moskva təzyiq edir. Sonda Ermənistanın da bu yolun açılmasını qəbul etməkdən savayı yolu qalmayacaq. Yəni Azərbaycanı nəyəsə təhrik edib yenidən müharibə vəziyyətinə salmaq gərəksiz bir şeydir. Və təbii ki, rəsmi Bakı da bu avantüraya getməyəcək...

***- Həm də Zəngəzur tarixi Azərbaycan torpaqları hesab olunsa da, Ermənistan ərazisinə müdaxilə dünya ictimaiyyətinin gözündə bizi indiyədək işğala məruz qalan ölkədən “işğalçı ölkə”yə çevirməzmi?***

- Bir daha deyirəm, Azərbaycan üçün Zəngəzur yoluna görə belə bir savaşa ehtiyac yoxdur. Bu, yol məsələsidir. Özü də kommunikasiyaların açılması İranla sərhəd boyu keçən Zəngəzur yolunun açılması demək deyil. Ermənistanın başqa hissələrindən keçən quru və dəmir yolları olub. O yolların hamısı hazırda qapalı vəziyyətdədir. Yəni, açılacaqsa, həmin yolların hamısı açılacaq və bunun da Ermənistana böyük faydası olacaq...

***- Digər bir məsələ isə ondan ibarətdir ki, biz Zəngəzur dəhlizinə bəzən “Turan yolu” da deyirik. Çünki Türkiyə ilə Azərbaycanı və Mərkəzi Asiyadan Uzaq Şərqədək tarixi Turan ərazisini birləşdirir. Bəs elə isə bu “Turan yolu”nun Rusiya imperiyasının kəşfiyyat qurumu olan “FSB”-nin nəzarətində olması Türk dünyası, xüsusən də Azərbaycan və Türkiyə üçün nə dərəcədə məqsədəuyğundur?***

- Bilirsiz, adı nə olur-olsun, əsas yolun olmasıdır. Ondan sonra yola kimin nəzarət etməsi də həmişə müvəqqəti məsələ olur. Yol isə Azərbaycanın əsas hissəsini Naxçıvan və Türkiyə ilə birləşdirən daimi bir yol olmalıdır...

> “
>
> *Rusiyanın ermənilərdən istifadə planları qüvvədə qalır*
>
> *Bizim bu saat bir üstünlüyümüz var ki, ermənilər torpaqlarımızı könüllü şəkldə tərk ediblər*
>
> *Zəngəzur yolu məsələsi Ermənistanla Rusiya arasında olan məsələdir*

*✍ Sultan Laçın*

# Məktəblər üçün ixtisaslı psixoloq

## Layihə

***Bu gün təhsildə keyfiyyətin yüksəldilməsi dövlət qarşısında duran əsas prioritetlərdəndir. Qeyd edək ki, təhsildə keyfiyyətin yüksəldilməsində psixoloji xidmətin əhəmiyyətli rolu var. Məktəbin işi şagirdlərə təkcə bilik, bacarıq və vərdişlər aşılamaqla deyil, həm də gələcək üçün komplekssiz, problemsiz şəxsiyyət yetişdirməkdir. Təbii ki, söhbət məktəblərdə işini bilən, ixtisaslı psixoloqlardan gedir.***



Müasir təhsil sistemindəki psixoloji xidmət praktik psixoloqun qarşısında uşaqların məktəb təliminə hazırlığı səviyyəsini aşkara çıxarmaq, onların məktəb təlimi şəraitinə və məktəb həyatına daha yaxşı uyğunlaşmasını təmin etmək üçün müəllimlərlə birlikdə fərdi iş aparmaq, uşağın həyatında keçid və böhran dövrlərini xüsusi nəzarətdə saxlamaq və s. kimi konkret və həlli vacib vəzifələr qoyur. Etiraf edək ki, bu gün təhsil sahəsində psixoloqların sayı yetərli deyil və bu sektorda peşəkar mütəxəssislərə ehtiyac var.

Yeri gəlmişkən, bu məsələ bir neçə gün öncə parlamentdə də müzakirəyə səbəb olub. Milli Məclisin deputatı Azər Badamov Milli Məclisdə büdcə müzakirələri zamanı deyib ki, məktəblərdə psixoloq ştatının azlığı onların aldığı əməkhaqqının az olması ilə əlaqədardır. Onun sözlərinə görə, təxminən 5 il əvvəl məktəblərdə müəllim və psixoloqların əməkhaqqısı, demək olar, eyni səviyyədə idi: "Ona görə də psixoloq olmaq istəyənlər həvəslə məktəbdə işləmək istəyirdi.

Sonra müəllimlərin bilik və bacarıqlarının yoxlanılması üçün imtahanlar təşkil edildi və onların əməkhaqqısı artırıldı. Bu gün müəllimin orta aylıq əməkhaqqısı 800 manatdan yüksək olduğu halda, psixoloqların maaşı 450 manatın üzərindədir. Bu qədər fərq aradan qaldırılmalıdır. Eyni zamanda psixoloqların sayı məktəbdə olan şagirdlərin sayına görə tənzimlənməli və normalar müəyyənləşdirilməliidr".

Qeyd edək ki, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova da məktəblərdə psixoloq və sosial işçilərin sayının şagird və tələbələrin sayı ilə nisbətdə çox az olduğunu deyib: "Buna görə də məktəb və digər təhsil müəssisələrində psixoloq və sosial işçilərin ştat vahidinin artırılmasına ehtiyac vardır".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən təhsil eksperti Nadir İsrafilov qeyd edib ki, müasir məktəbi psixoloqsuz təsəvvür etmək artıq heç də birmənalı qarşılanmır:** "Psixoloqlar təkcə uşaqlarla yox, müəllim və valideynlərlə də işləməlidir. Lakin gəlin görək pedaqoji işçilərlə birlikdə təhsilalanların psixoloji vəziyyətini, təlim nailiyyətlərini, inkişaf meyillərini, maraq dairəsini müəyyən etmək üçün psixoloji xidmətin vəzifələri nə dərəcədə yetərlidir. Tam əminliklə demək olarmı ki, məktəblərdə psixoloji xidmət işinin səviyyəsi ürəkaçandır? Təbii ki, məktəbdə psixoloji xidmətin təşkili digər təhsil xidmətləri ilə müqayisədə, nisbətən yeni sahədir. Əsasən, 90-cı illərdən etibarən ilk olaraq Bakı məktəblərinin əhatə edən psixoloji xidmət sahəsi qeyri-ixtisas və ya belə desək, digər fənn müəllimlərinin qısamüddətli ixtisasartırma yolu ilə yenidən hazırlanmış kadrların ümidinə buraxılıb. Bu mənada, onları peşəkar psixoloq hesab etmək, həmin psixoloqlardan aktiv və səmərəli fəaliyyət gözləmək sadəlövhlük olardı. Psixoloqların müəyyən hissəsi ali təhsilli deyil, onlar yenidən hazırlanma təhsili alanlardır. Ən böyük çətinlik isə ondan ibarət olub ki, 150 şagirdi olan məktəbdə də, 2 min şagirdi olan məktəbdə də bir psixoloq işləyir. Uzun müddət təhsil müəssisələrində çalışan müəllim heyətinə, psixologiya elminin müasir dövrün tələbləri və yenilikləri barədə məlumatlı olmaları üçün mütəmadi olaraq təlim kursları və seminarlar təşkil olunmayıb. Ali məktəblərdə psixologiya elminin qanunauyğunluqları və günümüzün tələblərinə cavab verə biləcək tədrisin təşkili üçün ciddi addımlar atılmayıb. Köhnədənqalma Əsasnamədə müvafiq dəyişikliklər edilməyib, psixoloqların diaqnostik qiymətləndirilməsi uzun müddət aparılmayıb. Nəhayət, xeyli sonralar "Təhsil haqqında" qanunda edilən dəyişikliklər və əlavələr tədricən öz nəticəsini verməyə başlayıb. Təhsil haqqında qanuna dəyişikliyə görə, psixoloqlar üçün daha peşəkar şərtlərin müəyyənləşdirilməsi baxımından yeni qaydaların hazırlanması nəzərdə tutulub".

> *Müasir məktəbi psixoloqsuz təsəvvür etmək artıq heç də birmənalı qarşılanmır*

N.İsrafilov vurğulayıb ki, məktəb psixoloquna baxış bucağımız mütləq şəkildə dəqiqləşdirilməlidir: "Qeyd edim ki, Nazirlər Kabinetinin qərarına əsasən təhsil müəssisələrində psixoloq ştatı şagird sayı 1000-dək olduqda 1 vahid, şagird sayı 1000-dən 3000-dək olduqda 2 vahid, şagird sayı 3000-dən çox olduqda 3 vahid müəyyən edilib. Bununla belə bu sahəyə xüsusi diqqət yetirilməsi və bu istiqamətdə müəyyən işlərin görülməsinə baxmayaraq, ümumtəhsil məktəblərində psixoloji xidmətin təşkilinə və məktəb psixoloquna baxış bucağımız və yanaşma tərzimiz bir daha dəqiqləşdirilməli və konkretləşdirilməlidir. Məktəblərdə baş verən hər hansı bir neqativi psixoloqun fəaliyyəti ilə əlaqələndirmək də ədalətsizlik olar. Başqa sözlə desək, məktəbin işi şagirdlərə təkcə bilik, bacarıq və vərdişlər aşılamaq deyil, həm də gələcək üçün komplekssiz, problemsiz şəxsiyyət yetişdirməkdir. Bu baxımdan məktəblərdə işini bilən, ixtisaslı psixoloqlara ehtiyac var. Bununla yanaşı, təlim və tərbiyə bir sosial element kimi cəmiyyətin digər üstqurum və bazis elementləri ilə şərtlənir, mövcud əxlaqi keyfiyyətlər sosial, iqtisadi, hüquqi və s. münasibətlər təlim-tərbiyə prosesinə təsirsiz ötüşmür. Deməli, hadisənin səbəblərini daha dərində axtarmalıyıq.

Zəmanə dəyişib, dəyərlər başqalaşıb, insani münasibətlərin önünə keçən ifrat virtual ünsiyyətdən "əməkdaşlıq pedaqogikası" adlanan canlı ünsiyyətə keçmək məcburiyyətində qalmışıq. İndi müəllim-şagird-valideyn münasibətlərinin genişləndirilməsi yollarının axtarışındayıq. Belə çıxır ki, məktəbdə psixoloqlar təkcə uşaqlarla yox, müəllim və valideynlərlə də işləməlidir. Halbuki, müəllimlərin özü də peşəkar səviyyədə olmasa belə, heç olmasa elementar psixoloji biliklərə sahib olmalıdırlar. Lakin bütün deyilənlər, heç də məktəb psixoloqunu məsuliyyətdən azad etmir. Bəli, bu gün psixoloji işin təşkilində boşluqlar var. Əksəriyyət məktəblərdə psixoloq çatışmazlığı müşahidə olunur. Bu gün 1 milyon 600 min nəfərdən çox yeniyetmənin təhsil aldığı 4 500 civarında olan ümumtəhsil məktəbinin hər birinin psixoloqla təmin olunması da o qədər real görünmür. Ona görə də bugünki müəllimlər təkcə pedaqoq kimi yox, həm də psixoloq kimi hazırlanmalı, xüsusilə uşaq psixologiyası və fiziologiyasının incəliklərinə yiyələnməlidirlər. Bu işdə pedaqoji təhsil verən ali və orta ixtisas təhsil müəssisələrinin üzərinə böyük yük düşür".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

■ **Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov bildirib ki, son illər bununla bağlı bir çox tədbirlər görülür: "Bütün bunların nəticəsində artıq orta məktəblərdə bu sahənin adı var, bircə onun doğrudürüst fəaliyyəti qalır.** Təəssüf ki, orta məktəblərdə direktor və psixoloq bu sahəyə hələ də dırnaqarası yanaşırlar. Araşdırmalarıma görə, orta məktəbdə psixoloji xidmətin zəif olması bir çox səbəblə bağlıdır. Birincisi, bu sahənin yeni olmasıdır. Yəni, orta məktəbdə psixoloq ştatı hələ tam oturuşmayıb və cəmiyyət tam şəkildə maariflənməyib. Valideyn hələ tam fərqinə varmır ki, psixoloqun orta məktəbdə işi nədən ibarətdir. Ona görə də maariflənmə işi düşünürəm ki, daha da geniş formada aparılmalıdır. İkinci səbəb isə psixoloq ştatının olması, ancaq psixoloqların psixoloji işi aparmaq üçün şəraitlərinin olmamasıdır. Heç kimə sirr deyil ki, bir qisim orta məktəbdə psixoloqlar konkret əvəzçiliklə dərs demək və belə deyək ki, öz işləri ilə yanaşı, başqa işləri də yerinə yetirmək durumu ilə üz-üzə qalırlar. Bir də psixoloqun ştat vahidinin müəyyən olunması da psixoloji işin daha yaxşı görülməsində bir motivasiya vasitəsi olacaq. Düşünürəm ki, ştat vahidi qaldırılmalıdır. Orta məktəbdə çalışan psixoloqun aldığı əməkhaqqı da digər müəllimlərin məvacibinə müəyyən qədər bərabər tutulmalıdır. Bax, bu işlərin həll olunması və eyni zamanda, düşünürəm ki, orta məktəbdə çalışan psixoloqlara təlimləri, treninqlərin mütəmadi olaraq keçirilməsi vacibdir. Orada uşaqlarla yanaşı, yeniyetmələr də mövcuddur. Hətta onların da içərisində elələri var ki, konkret olaraq psixoloji rahatsızlıqları ilə yanaşı, həm davranış, ünsiyyət problemləri var, həm də çətin tərbiyə olunan uşaqlardır. Orta məktəb psixoloqları da bilməlidirlər nə formada işləmək lazımdır. Düşünürəm ki, bunların hamısı mütləq nəzərə alınmalıdır".



**Nadir İsrafilov,**
təhsil eksperti

✍ *Sevinc*

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Rəqəmsal manata ehtiyatlı yanaşma

***Azərbaycan Mərkəzi Bankı rəqəmsal manatı tətbiq etməyə tələsmir. Bu fikirləri "Critical Infrastructure Defence Challenge 2023" ("CIDC-2023") tədbiri çərçivəsində "Kritik informasiya infrastrukturlarının kibermüdafiəsində effektivlik necə təmin edilməlidir?" mövzusunda panel iclasında çıxışı zamanı Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) baş direktoru Fərid Osmanov qeyd edib.***



O bildirib ki, AMB yaxın zamanda rəqəmsal manatın tətbiqi ilə bağlı qərar verməyib: "Beynəlxalq trendləri nəzərə alaraq, davamlı olaraq rəqəmsal valyuta ilə bağlı təhlillər aparırıq lakin onun tətbiqinə tələsmirik. Təhlil zamanı bir sıra istiqamətlər nəzərdən keçirilməlidir. Bunun həm monetar siyasətə, həm iqtisadiyyata təsiri, kibertəhlükəsizlik məsələləri qiymətləndirilməlidir. Bu işi AMB-nin komandası həm ayrıca, həm də beynəlxalq tərəfdaşlarla birgə həyata keçirir. Təhlillər tam yekunlaşandan sonra rəqəmsal manatın tətbiqi imkanları dəyərləndiriləcək. Yəni, hələ ki, AMB bu məsələdə qərarlı deyil". Bəs görəsən, Mərkəzi Bank bu məsələdə niyə qərarsız qalıb? Azərbaycanda rəqəmsal manata keçid nə zaman reallaşa bilər?

■ **Mövzunu qəzetimizə şərh edən bank məsələləri üzrə ekspert Əkrəm Həsənov deyib ki, əslində Mərkəzi Bankın bu məsələdə ehtiyatlı davranmağı başadüşülləndir:** "Bu məsələ hələlik bizim üçün aktual deyil. Əvvəlcə biz baxmalıyıq ki, böyük ölkələrin bu sahədə təcrübəsi necədir, hansı böyük ölkələr rəqəmsal valyutaya keçiblər və s. Hazırda demək olar ki, ən inkişaf etmiş ölkələrdə belə bu məsələ pilot şəklindədir. Biz niyə tələsməliyik.Yəni, biz dünyanın nə böyük maliyyə ölkələrindənik, nə də informasiya texnologiyaları üzrə ciddi inkişafımız var. Əgər böyük və inkişaf etmiş ölkələr bu işi tam qura bilməyiblərsə, biz də ehtiyatlı davranmalıyıq.

> *Hazırda demək olar ki, ən inkişaf etmiş ölkələrdə belə bu məsələ pilot şəklindədir*

Mərkəzi Bankın bu məsələdə tələsməməsi müsbət haldır. Yaxın illərdə rəqəmsal manatın tətbiqi real görünmür. Bu istiqamətdə addım atılarsa, texniki, hüquqi, təhlükəsizlik baxımından problemlər ortaya çıxacaq. Hesab edirəm ki, Mərkəzi Bankın və ölkəmizin hazırda o qədər problemi var ki, həmin problemləri həll etmək lazımdır. Bu prosesə vaxt sərf etməyin mənası yoxdur. İndiki məqamda bank sektoru üçün nəinki birinci, ikinci, həç üçüncü dərəcəli də məsələ deyil. Ümumiyyətlə isə Azərbaycanın yaxın 5 il ərzində rəqəmsal manata keçəcəyini gözləmirəm".



**Əkrəm Həsənov,**
bank məsələləri üzrə ekspert

✍ *Sevinc*

## XƏBƏRİNİZ OLSUN...



■ Noyabrın 16-dan dövlət ümumi təhsil müəssisələrində işləyən gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin peşəkarlıq səviyyəsinin yoxlanılması və təlim ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə diaqnostik qiymətləndirmə prosesi təşkil olunacaq. Elm və Təhsil Nazirliyindən verilən xəbərə görə, proses ölkə üzrə 13 imtahan mərkəzində həyata keçiriləcək.

■ Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda 5,5 mln. ton neft emal edilib, bu da illik müqayisədə 7,84% çoxdur. Bu barədə Energetika Nazirliyinə istinadən xəbər verir. Qeyd edək ki, ötən ilin yanvar-oktyabr aylarında Azərbaycanda 5,1 mln. ton neft emal edilib.

■ Milli Məclisdə "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Türkiyə Respublikasının Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi barədə" qanunun layihəsi müzakirəyə çıxarılıb. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edilib.



■ Bolqarıstanın xarici işlər naziri Mariya Qabriel Azərbaycana səfər edəcək. Xarici işlər naziri yanvar ayında Bakıya səfər edəcək. O, yanvarın 24-də keçiriləcək Azərbaycan-Bolqarıstan Strateji Dialoqunun 3-cü iclasında iştirak edəcək.

■ Azərbaycanın Milli Prioritetlərində və 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyanın icrası nəticəsində ölkə iqtisadiyyatının hər il orta hesabla 3-4%, qeyri-neft qaz ÜDM-nin isə illik orta hesabla 5% artımı hədəflənib. Bunu iqtisadiyyat naziri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası sədrinin müavini Mikayıl Cabbarov deyib.

■ Gürcüstanın "3+3" platforması ilə bağlı mövqeyi birmənalıdır: ölkə bu formatda iştirak etməyib, etmir və etməyəcək. Bunu Gürcüstanın xarici işlər naziri İliya Darçiaşvili ölkənin İctimai kanalının efirində deyib. O, Gürcüstanın qonşu ölkələrlə - Türkiyə, Azərbaycan və Ermənistanla ikitərəfli formatlarda çox yaxşı münasibətlərinin və əməkdaşlıq əlaqələrinin olduğunu vurğulayıb.



■ Bakı şəhərinin mərkəzində erməni kilsəsi var və ibadət edənlər üçün həmişə açıqdır. Bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyev Komitənin təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev siyasəti: tolerantlıq" mövzusunda konfransda deyib.

■ Milli Məclisin xərclər smetasında nəzərdə tutulan vəsaitlər hesabına avtoparkın maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə avtomobillər alınıb və istismara verilib. Bunu Milli Məclisin İşlər idarəsinin müdiri Firudin Hacıyev deyib. Onun sözlərinə görə, yeni avtomobillərin alınması ilə avtopark yenilənib:

## Dünya

**_Ukraynada ikinci ildir davam edən müharibə Qərb ölkələrinə bel bağlamağın nə dərəcədə yanlış olduğu reallığını bir daha təsdiqlədi. Kiyevi reallaşması onsuz da möcüzə kimi görünən vədlərlə Rusiya ilə müharibəyə təhrik edən, ölkənin tamamilə dağıdılmasına yol açan Qərb indi Kiyevə göstərdiyi hərbi və maliyyə dəstəyini azaltmaq, hətta tamamilə dayandırmaq, Moskva ilə separatçı danışıqlara başlamaq niyyətindədir. Ən azından, Qərb ölkələrinin siyasi mərkəzlərinin açıqlamaları, rəsmilərin məlumatları və mətbuatın bu istiqamətdə silsilə məqalələr (təbii ki, hökumətlərinin sifarişi ilə) dərc etməsi bu qənaətə gəlməyə ciddi əsas verir. Sirr deyil ki, Ukraynanın Rusiya işğalına qarşı müharibəsində Kiyevin əsas sponsoru ABŞ sayılır._**

# Qərb Ukraynanı yarıyolda qoyur

Bir aydan çoxdur ki, Konqresdə Ukraynaya növbəti yardım paketinin ayrılması dalana dirənib. Bir çox ekspertlər, əslində, bunu Ağ evlə Konqresin gizli razılaşması kimi görürlər. Məqsəd sanksiyalarla, artıq Rusiyanı zəiflətdiklərini düşünən Vaşinqton rəhbərliyinin Ukrayna böhranına son qoymağı düşünməsidir. Burada Ukraynanın ərazi bütövlüyünün pozulması, iqtisadiyyatının



dağıdılması, şəhərlərinin xaraba qalması, milyonlarla sakininin qaçqın düşməsi faktı isə ikinci plandadır.

Ukraynanın bu müharibədə ikinci güvəndiyi əsas mərkəzlərdən olan Brüsseldə də (Avropa İttifaqı) üzərlərinə düşən öhdəliklərin yerinə yetirilməsində çətinliklər olduğunu «etiraf» edirlər.

«Aİ-nin Ukraynaya dəstək məsələsində çətinliklər var», - bu barədə "Blomberg" məlumat yayıb. Bildirilib ki, Brüssel Ukraynaya artilleriya mərmilərinin tədarükü ilə bağlı problemlər yaşayır: "Görünür, qurum martın sonuna qədər Kiyevə 1 milyon artilleriya mərmisi göndərmək vədini yerinə yetirməyəcək". Həmçinin qeyd olunub ki, davamlı yardım vədlərinə baxmayaraq, Aİ müxtəlif maliyyə paketləri üzərində razılığa gəlməkdə çətinlik çəkir: "Bundan başqa, Rusiyaya qarşı sanksiyaların tətbiqi təxirə salınıb".

Avropa İttifaqının Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozep Borrell bildirib ki, ABŞ gələn il Ukraynaya hərbi yardımı azaldacağı təqdirdə, nə baş verəcəyini bilmir. "Aİ Şurası tok-şou deyil və mən astroloq deyiləm, gələn il ABŞ-da nə baş verəcəyini bilmirəm. Biz bu cür spekulyasiyaları müzakirə etməkdənsə, daha ciddi hərəkət etməliyik". Borrell cari işlərlə məşğul olduğunu və spekulyasiyaya vaxt itirməyə hazır olmadığını vurğulayıb. O, həmçinin bəyan edib ki, Avropa İttifaqının öz sursat-anbarı yoxdur, ona görə də assosiasiya ölkələri Ukraynaya mərmi tədarük etməlidir.

Litvanın xarici işlər naziri Qabrielius Landsberqis isə bir qədər də irəli gedərək deyib ki, ABŞ və Avropada Ukraynaya dəstəklə bağlı tərəddüd yaranıb. Onun sözlərinə görə, Qərb müttəfiqləri Ukraynaya dəstəyi davam etdirməkdə tərəddüdlüdür: "Bu, Rusiya Prezidenti Vladimir Putində müharibədə qalib gələ biləcəyinə inam yarada bilər".

Nazir hazırda vəziyyətin qeyri-müəyyən olduğunu diqqətə çatdırıb: "Biz çox vacib qərarlar qəbul etmək bacarığını artıq nümayiş etdirmişik. Avropa artıq liderlik nümayiş etdirib. İndi biz bunu bir daha etməliyik". Q.Landsberqis, həmçinin Ukrayna və Rusiya arasında danışıqlara qarşı çıxıb: "İstənilən danışıqlar Moskvanın qələbəsi deməkdir".

Slovakiya müdafiə naziri Robert Kaliniak isə ölkəsinin Ukraynaya hərbi yardımı dayandırması barədə NATO-nun Baş katibi Yens Stoltenberqə məlumat verib. Qeyd olunub ki, Slovakiya hökuməti sənədi qəbul edib. Məlumat görə, Slovakiyanın tərəfdaşları bu qərar hörmətlə yanaşır.

Ukraynanın gözdən çıxarılması kampaniyası Qərb mətbuatında daha çox qabardılmağa başlayıb. Sanki, Ukraynanın artıq məğlub olduğuna dair beynəlxalq ictimai rəy formalaşdırılmasına start verilib.

Məsələn, Böyük Britaniyanın The Times nəşri yazır ki, Ukrayna və Qərb kəşfiyyat xidmətləri arasında əlaqələr zəifləyir. Vaşinqton və London Kiyevin öz planlarını onlara tam açıqlamadığından şübhələnirlər. Bu, xüsusilə Rusiyaya qarşı yönəlmiş təxribat əməliyyatlarına aiddir: «Ukraynanın silahlı münaqişəni təxribat və təkcə hərbi deyil, həm də siyasi hədəfləri məhv etməklə Rusiyaya ötürmək strategiyasına dair şübhələr daha vacibdir. Kiyevin hesablamalarına görə, bu, ruslarımüharibəyə qarşı yönəltməyə başlayacaq. Amma Qərbdə çoxları hesab edir ki, bunun tam əksi baş verə bilər və bu, Vladimir Putinin Ukrayna əleyhinə çıxışına sərf edəcək».

Britaniyanın "The Telegraph" nəşri isə hərbi əməliyyatların gedişinə toxunub. Bildirilir ki, qışın başlaması ilə Ukrayna Silahlı Qüvvələrinin əks-hücum əməliyyatı rəsmən başa çatmış hesab edilə bilər. Ukrayna qoşunları böyük miqdarda texnika və canlı qüvvə itirərək əhəmiyyətli nəticələr əldə edə bilməyib. Gələn il isə uğurlu olmayacaq. Ukrayna üçün bu, ciddi aşınma münaqişəsinə çevriləcək. Maraqlıdır ki, bu uğursuzluğun səbəbi də etiraf edilir:

"Biz ukraynalılara hərbi əməliyyatları Rusiya ərazisinə keçirməyi qadağan edirik, bu da onları çox məhdud cəbhədə hücuma keçməyə məcbur edir. İkincisi, sadəcə, onların həqiqətən başqa uğur şanslarının olmadığına əmin olmaq üçün biz Kiyevə tank tədarük etməyə razılıq verməzdən əvvəl bir neçə ay tərəddüd etdik və sonra onları ora göndərmək üçün daha bir neçə ay sərf etdik. Bütün bunlar yalnız ruslara Surovikin xəttini qurmaq üçün kifayət qədər vaxt verməkdir.Kobud desək, burada Ukraynanın hərbi uğursuzluğu yox idi. Məhz biz Qərbdə onları əlləri arxada bağlayaraq döyüşməyə məcbur etmişik. Onların səyləri ilə hər hansı bir irəliləyiş əldə etmələri heyranedicidir".

"The Guardian" isə Ukraynanın Avropa İttifaqına qəbulu şansını dəyərləndirib. Bildirilir ki, Aİ-yə üzv olan 27 ölkənin dövlət başçıları dekabrda Brüsseldə görüşəndə Aİ tarixində ən mühüm qərarlardan birini qəbul etməli olacaqlar: "Ukraynanın təşkilata üzvlüyü ilə bağlı danışıqlara başlayıb-başlamamaq. Bu həftə Avropa Komissiyası danışıqlara başlamağı tövsiyə etdi, yəni Avropa Şurası, demək olar ki, yaşıl işıq yandıracaq. Amma bu, Ukraynanın yaxın gələcəkdə Aİ-yə daxil olmasına icazə veriləcəyi demək deyil. Əslində, bu münaqişəli ölkə heç bir sonu olmayan danışıqlarda tələyə düşə bilər".

"Qərbin Ukraynanı yarıyolda qoyacağı əvvəldən də məlum idi. ABŞ və kollektiv Qərb heç vaxt müttəfiqlərini sona qədər dəstəkləməyib. İlkin mərhələdə dəstək verib, bir qüvvəni başqa qüvvəyə qarşı qoyandan sonra geri çəkiliblər. Rusiya-Ukrayna müharibəsində də eyni hadisəyə şahid oluruq". Bunu hafta.az-a politoloq Rəşad Bayramov Qərbin Ukraynaya münasibətilə bağlı şərhində bildirib.

Ekspert bildirib ki, ABŞ və onun Avropa İttifaqında olan müttəfiqlərinin qarşısında duran birinci vəzifə Rusiyanı bataqlığa çəkmək, sanksiya tətbiq etməklə iqtisadiyyatını zəiflətmək və çökdürməkdən ibarət idi. İkinci məsələ NATO-nun Rusiya sərhədlərində möhkəmlənməsindən ibarət idi. ABŞ-bütün Avropanı Rusiya ilə qorxudaraq yenidən öz ətrafında cəmləməsinə nail olmaq niyyətini də güdür. Bunlar hamısı baş verib.

Ekspert hesab edir ki, ABŞ-a, Avropaya lazım olan Rusiyanın sərhədlərinə yaxınlaşmaq idi. Rusiya Ukraynanın NATO-ya girişinə maneə olmağa müvəffəq olsa da, əvəzində Fillandiya NATO-ya üzv oldu və beləliklə NATO sərhədləri böyüdü.

"Rusiya Ukrayna ilə müharibəyə başlamaqla faktiki bataqlıqdadır. Rusiyaya qarşı tətbiq olunan misli görünməmiş sanksiyalar onun iqtisadiyyatını ağır duruma salıb. Növbəti ildən Avropa ölkələrinin Rusiyadan qaz, neft alışını dayandırması vəziyyəti daha da dramatikləşdirəcək.

Ukrayna müharibədə canlı qüvvə, dinc insanını itirməsi, infrastrukturunun dağıdılması, ərazilərinin bir hissəsinin əlindən çıxması və xarici ölkələrə borclanması ilə çıxılmaz vəziyyətə düşüb. Rusiya da cəbhədə istəyinə nail ola bilmədi. Müharibənin uzanması ilə hərbi qüdrətinin mübahisəsini yaratdı. Bu müharibədə qazanan tərəfin ABŞ və Qərb oldu. Avropa və Qərb istəklərinə çatandan sonra əlavə xərc çəkib Ukraynanı silah-sursatla təmin etməkdə maraqlı deyil. Amerika, Qərb üçün Ukraynada nə baş verməsinin bir o qədər də önəmi yoxdur. Onlara lazım olan Rusiyanı uçuruma salmaq idi. ABŞ Senatı bəhanə eləməklə yardımı dayandırdı. Digər ölkələr də "İmkanımız yoxdur" və yaxud "Hərbi arsenalımız əlavə qüvvə göndərməyə imkan vermir" deyib, kənara çəkiliblər. Bunlar əvvəldən planlaşdırılmışdı. İndi Yaxın Şərqdə baş verənlər bəhanəsi ilə İsrailə kömək etməyin vacib olduğunu əsas gətirən Qərb özü kənara çəkilib Ukraynanı danışıqlara getməklə bağlı təkliflər verir". R.Bayramov hesab edir ki, müttəfiqləri yem kimi irəli verməsi ABŞ və Qərbə yaxşı heç nə vəd etmir. Onun fikrincə, bu siyasəti sonda onları təklənmiş vəziyyətə gətirib-çıxaracaq, güvənini itirəcək:

"Çox təəssüf ki, ABŞ, Qərb koalisiyası Ukraynaya qırıcı təyyarələri və uzaqmənzilli raketləri verməkdə tələsmir. ABŞ nə Ukraynanın qalib gəlməsini, nə də Rusiyanın tamam məğlub olmasını istəmir. ABŞ-ın Ukrayna üzərindən yeni bir siyasi nizamın qurulması ilə bağlı strateji planı var. Ona görə də Rusiyanı zəiflədir". Bunu isə politoloq Məhəmməd Əsədullazadə Qərbin və ABŞ-ın Ukraynaya xəyanət etməsi ilə bağlı Qərbin aparıcı tədqiqat mərkəzlərində gedən məqalələr kontekstində bildirib.

M.Əsədullazadənin qənaətincə, Ukrayna parçalansa, bu, Rusiyanın geosiyasi mövqelərinin güclənməsi, Avropa, Qərb NATO üzərində qələbə əldə etməsi ilə nəticələnə bilər. "Bu da postsovet məkanının bərpası da ola bilər. Ona görə də, Ukrayna müharibəsi uzun çəkir, onun lokal hücumları olsa da ciddi nəticə vermir. Rusiya ciddi müdafiə sistemi qurub. Rusiya Müdafiə sənayesi müharibə qaydalarına uyğun yenidən formalaşıb. Rusiya-Ukrayna müharibəsi geopolitik müharibədir. Qərblə Rusiya arasında nüfuz uğrunda savaş gedir. Rusiya əvvəlki statusunu qaytarmaq, Şərqi Avropanı, postsovet məkanını yenidən nəzarətə götürmək istəyir. Amma Qarb koalisiyası bunun qarşısını alır. Ona görə də Rusiya və Qərb Ukraynada toqquşdu".

> "ABŞ nə Ukraynanın qalib gəlməsini, nə də Rusiyanın tamam məğlub olmasını istəmir

> Qərblə Rusiya arasında nüfuz uğrunda savaş gedir

✍ Ləman Əliyeva

---

# Vergi Məcəlləsinə dəyişikliklər



Qanun

**_2024-cü ilin dövlət büdcəsinin proqnozlarında vergilərlə bağlı müəyyən yeniliklər gözlənilir. Bu məqsədlə Vergi Məcəlləsində bəzi dəyişikliklərin edilməsi nəzərdə tutulur. Vergi qanunvericiliyində gözlənilən dəyişikliklərə əsasən, güzəşt və azadolmalar həm sosial, həm də iqtisadi xarakterli olacaq. Sosial xarakterli güzəştlər sırasında fiziki şəxslərin gəlirlərinə düşən vergi yükünün azaldılması məqsədilə bəzi kateqoriyalı şəxslərə verilən güzəştlərin həcminin artırılması, eyni zamanda bir sıra gəlirlərin vergiyə cəlb olunan gəlir bazasından çıxarılmasıdır._**

Bu o deməkdir ki, bəzi sosial təbəqələr üçün əlavə vergi güzəştləri olunacaq, eləcə də onların indiyədək vergiyə cəlb olunan gəlirlərinin müəyyən hissəsi də vergidən azad ediləcək. Həmçinin sosial məqsədlər üçün ödənilən mənfəət vergisinin azad olunan hissəsinin bir qədər də artırılması, bir sıra təsərrüfat sahələri üzrə mülkiyyət vergiləri üzrə əlavə güzəştlərin verilməsi də hədəflər sırasındadır. Belə ki, vergi ödəyicisinin mənfəətinin elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara, ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən və vergidən azad olan hissəsinin 10 faizdən 15 faizə qaldırılması gözlənilir.

Proqnozlara görə, sosial xarakterli güzəştlər hələ bir neçə il də qüvvədə qalacaq və 2024-2027-ci illər üzrə vergi gəlirləri üzrə siyasətinin əsas istiqamətləri sırasında olacaq. Bu strateji xəttə əsasən, hədiyyələrin və təhsil haqlarının ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin gəlir vergisindən azad olunan hissəsinin 1000 manatdan 2500 manata qaldırılması, fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş ƏDV-nin qaytarılmasına (ƏDV cash-back) görə əldə olunan gəlirlərin gəlir vergisindən azad edilməsi nəzərdə tutulur.

Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli bildirib ki, 2024-cü ildə sahibkarlar üçün vergi yükünün optimallaşdırılması siyasəti əsas prioritetlərdən biri olacaq. Bu da biznesin maraq və mənafelərinə xidmət edir. İqtisadi xarakterli güzəştlər üzrə siyasətin əsas istiqamətlərindən biri 2023-cü ildən tətbiqinə başlanılmış işğaldan azad edilmiş ərazilərdəki vergi güzəştlərinin təşviqini daha da gücləndirməklə bu ərazilərə xarici iş adamlarını cəlb etmək, bölgənin iqtisadi reinteqrasiya arxitekturasını möhkəmləndirməkdir. Həmçinin ölkədə kiçik və orta biznesin fəaliyyətini stimullaşdırmaq da əsas təşviqlərdən biridir. Yeni ildən qüvvəyə minəcək Rəqabət Məcəlləsi bu istiqamətdə imkanları daha da artıracaqdır. Bununla yanaşı, turizm subyektlərinə (mehmanxana, hotel və sanatoriya) əmlak vergisi üzrə vergi təşviqinin verilməsi də güzəşt paketində yer tutur. Biznes sektorunda fiziki vergi güzəştləri ilə yanaşı, bir sıra institusional alətlər üzrə optimallaşdırma tədbirləri nəticəsində vergi yükünün aşağı salınması da nəzərdə tutulur. Belə ki, kiçik, orta və mikro sahibkarların müxtəlif rəqəmsal - elektron sənədləşmələr, daha doğrusu, vergi əməliyyatlarına çəkdikləri xərclərin minimallaşdırılması, eyni zamanda sadələşdirilmiş istiqamətində planlaşdırılan tədbirlər sayəsində də ümumi vergi yükünün azalması gözlənilir. Maliyyə lizinqinin vergiyə cəlb edilməsi mexanizminin sadələşdirilməsi, ictimai təyinatlı mənfəət vergisi üzrə azadolmanın artırılması vergi siyasətində yer alacaq. Ümumilikdə 2023-cü ilin sonunda müddəti tamam olan güzəşt və azadolmaların müddətinin 3 il uzadılması təklif olunur.

Bütün bu güzəşt paketinin məqsədi qarşıdakı illərdə vergi yükünü optimallaşdırmaqla daha da aşağı salmaqdır. Vergi orqanları məhz bu alətlərlə qeyri-neft sektorunda çalışan biznes icmasını həvəsləndirməyi və bununla vergi bazasını genişləndirməyi hədəfləyir. Bütün bunlarla yanaşı, növbəti ildə dövlət büdcəsi gəlirlərini təmin edən vergi orqanı ilə vergi ödəyiciləri arasında şəffaf münasibətlərin qurulması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində addımların atılması davam etdiriləcək. Ekspertlər hesab edirlər ki, Vergi Məcəlləsinə dəyişikliklərin olunması həm diferensiallıq, həm də dayanıqlıq baxımından bir zərurətdir. Ona görə də sözügedən sənədə hər il hansısa əlavə və dəyişikliklər edilir.

■ **Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynovun sözlərinə görə, 2024-cü ildə vergi optimallaşdırılması nəticəsində vergi yükü aşağı düşəcək:**

"Vergi qanunvericiliyində mikrosahibkarlıq subyektləri üçün sadələşdirilmiş vergi ödəyicisi kimi hüquq və vəzifələr müəyyənləşib. Fərdi sahibkarlar üçün sadələşdirilmiş vergi, yəni 5 dərəcə ilə yanaşı, işçi sayı 10 nəfərdən çox olan istehsal fəaliyyətini həyata keçirən şəxslərin də vergi hüququ müəyyənləşib. Belə ki, bu şəxslər gəlir vergisi ödəyicisi kimi fəaliyyət göstərdiyindən əldə edilmiş gəlirdən həmin gəlirin əldə edilməsi ilə bağlı çəkilən xərclər çıxıldıqdan sonra qalan məbləğdən 20 faiz dərəcə ilə gəlir vergisi hesablanıb dövlət büdcəsinə ödənilir. Bu sahədə vergilərin dərəcələrinin artırılması nəzərdə tutulmur".

A.Hüseynov bildirib ki, 2024-cü ildə vergi qanunvericiliyinin optimallaşdırılması nəticəsində bəzi sosial təbəqələr üçün əlavə vergi güzəştləri olunacaq: "Eləcə də onların indiyədək vergiyə cəlb olunan gəlirlərinin müəyyən hissəsi də vergidən azad ediləcək. Vergi ödəyicisinin mənfəətinin elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara, ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən və vergidən azad olan hissəsinin 10 faizdən 15 faizə qaldırılması gözlənilir. Bundan başqa, hədiyyələrin və təhsil haqlarını ödəmək üçün maddi yardımın, birdəfəlik müavinətin dəyərinin gəlir vergisindən azad olunan hissəsinin 1000 manatdan 2500 manata qaldırılması, fiziki şəxs olan istehlakçılar tərəfindən ödənilmiş ƏDV-nin qaytarılmasına (ƏDV cash-back) görə əldə olunan gəlirlərin gəlir vergisindən azad edilməsi nəzərdə tutulur".

A.Hüseynov deyib ki, biznes sektorunda fiziki vergi güzəştləri ilə yanaşı, bir sıra institusional alətlər üzrə optimallaşdırma tədbirləri nəticəsində vergi yükünün aşağı salınması da nəzərdə tutulur: "Belə ki, kiçik, orta və mikrosahibkarların müxtəlif rəqəmsal - elektron sənədləşmələr, daha doğrusu, vergi əməliyyatlarına çəkdikləri xərclərinin minimallaşdırılması, eyni zamanda sadələşdirilməsi istiqamətində planlaşdırılan tədbirlər sayəsində də ümumi vergi yükünün azalması gözlənilir. Maliyyə lizinqinin vergiyə cəlb edilməsi mexanizminin sadələşdirilməsi, ictimai təyinatlı mənfəət vergisi üzrə azadolmanın artırılması vergi siyasətində yer alacaq. Ümumilikdə, 2023-cü ilin sonunda müddəti tamam olan güzəşt və azadolmaların müddətinin 3 il uzadılması təklif olunur".

> Vergi qanunvericiliyində mikrosahibkarlıq subyektləri üçün sadələşdirilmiş vergi ödəyicisi kimi hüquq və vəzifələr müəyyənləşib

✍ Sevinc

# SEPAH bəyanat verir, siyasilər susur

***Təxminən, ayyarımdır davam edən İsrail-HƏMAS savaşı, necə deyərlər, əndazəsini aşaraq, Qəzza ilə kifayətlənməyərək, artıq Livan ərazisinə də yayılmaqdadır. Livan isə ortaya konkret heç bir dəlil qoymasa da, onsuz da HƏMAS-ı dəstəklədiyi deyilən İranın təsiri altındadır. Daha doğrusu, Livana ciddi nəzarət edən HİZBULLAH İranın bu kiçik ölkə üzərində asılmış Demokl qılıncıdır. Elə Livanı İsraillə savaşa sürükləyən də məhz bu amildir. İran İnqilab Keşikçiləri Korpusu (SEPAH) Hərbi Hava Qüvvələrinin komandanı Əmir Əli Hacızadə müharibənin bölgədə genişlənmə ehtimalı ilə bağlı xəbərdarlıq edərək, "Müharibə Livana yayılıb, qarşıdurmaların intensivliyinin artacağı ehtimalı var", - deyib. Hacızadə bildirib ki, İran hazırkı münaqişənin qeyri-müəyyən gələcəyi fonunda bütün vəziyyətlərə hazırlaşır.***

## Aktual

Bu arada Hacızadə bu sözləri ABŞ-ın Suriyadakı İrana məxsus hərbi bazalara hava zərbəsi endirməsindən bir neçə saat sonra səsləndirib.

İran mediası bildirib ki, Hacızadə jurnalistlərə açıqlamasında HƏMAS hərəkatının oktyabrın 7-də başlatdığı hücuma işarə edərək, "Qəzza məsələsi bu gün qlobal problemə çevrilib" və "Fələstin müqaviməti üçün böyük strateji qələbə" haqqında danışıb. Hacızadə "Bu böyük qələbəni nə taktiki, cinayətkar əməliyyatlarla, nə də uşaqların öldürülməsi ilə aradan qaldırmaq olmaz", - deyib.



İranın Qəzza müharibəsinin Livana keçməsinə reaksiya verməsi ehtimalı ilə bağlı suala Hacızadə belə cavab verib: "Bu gün müharibənin ərazisi genişlənib və Livan da onun içindədir. Münaqişələr indikindən daha çox artacaq, çünki gələcək qeyri-müəyyəndir. İran istənilən vəziyyətə hazırdır". Hacızadə ötən ay Qəzzada müharibənin başlanmasından sonra ilk şərhini 2011-ci il noyabrın 12-də raketdə baş verən güclü partlayışda həyatını itirən İran ballistik proqramının mühəndisi Həsən Tehrani Müqəddəm üçün Tehranın şərqindəki Malard rayonunda yerləşən zavodda keçirilən anım konfransında deyib. Sözügedən partlayışda SEPAH-ın 36 üzvü həyatını itirib.

Qeyd edək ki, bombanın üzərində İsrailin "barmaq izləri" var idi. Bu hadisə nüvə alimlərinin, hərbi rəsmilərin, İrandakı nüvə və hərbi obyektlərin iştirak etdiyi və İsrailin açıq dənizdəki ticarət gəmilərinə təsir edən İsrail-İran kölgə müharibəsinin ən görkəmli hadisəsi hesab olunur.

### Mesaj alış-verişi

**Hacızadə ABŞ Prezidenti Co Baydenin birbaşa İranın Dini Lideri Əli Xamneiyə göndərdiyi xəbərdarlığa üstüörtülü istinad edərək, "Amerikalılar İranı təhdid etmirlər. İranla yazışmalarında onların dilində ümid və arzudan danışılır", - deyib.**

Hacızadə sözlərinə belə davam edib: "İran o vəziyyətdə deyil ki, başqaları onu təhdid etsin. Biz gücümüzün zirvəsindəyik və istənilən vəziyyətə hazırıq. Sionist varlıq intiqam, münaqişə və məhbusların azad edilməsi məsələsindən kənara çıxıb.

Bu, Netanyahu və İsrail rəhbərlərinin şəxsi qisas məsələsi kimi görünür. Onlar bilirlər ki, bu gün atəşkəs elan olunarsa, Netanyahu hökuməti səlahiyyətlərinin çoxunu itirəcək və ertəsi gün məhkəmə qarşısına çıxmalı olacaq. Müharibə daha bir ay davam etsə, ölənlərin sayını artırmaqdan başqa heç nəyə nail olmayacaqlar. Yaralı əsgərləri daşıyan helikopterlərin yanacaq doldurmaq imkanı olmadığı üçün havadan yanacaq alırlar. Bundan əlavə, müharibə xərcləri artır. Amerikalılar özlərini İsrailin təleyində iştirakçı kimi görür və bunun əvəzini gələcəkdə Amerika vergi ödəyicilərinin cibindən ödəyəcəklər".

Hacızadə İraq silahlı qrupları və Yəmən Husi qruplaşmasına toxunaraq, "Müqavimət oxu bu gün işləyir", - deyib.

İran rəsmiləri Qərb ölkələrinin İranın vəkil qüvvələri kimi təyin etdiyi silahlı qrupları "müqavimət oxu" adlandırır. ABŞ qüvvələri



Suriya və İraqda iranpərəst qrupların 45-dən çox hücumuna məruz qalıb.

Yuxarıda da qeyd etdiyimiz kimi, ABŞ qüvvələri bazar günü Suriyanın şərqində SEPAH-ın istifadə etdiyi obyektlərə hava zərbələri endirib. ABŞ-ın Müdafiə naziri Lloyd Austin, "Hücumlar müvafiq olaraq əl-Bukamal və əl-Meyadin şəhərləri yaxınlığındakı təlim obyekti və gizləndiyi yerləri hədəf aldı" deyib.

Bu, ötən çərşənbə ABŞ qüvvələrinin Suriyada İranın iki silah anbarını hədəf almasından sonra üçüncü hücumdur. Suriya İnsan Haqları Müşahidə Qrupu (SOHR) iranpərəst silahlı qruplaşmalardan ölənlərin sayının 8 nəfər olduğunu bildirib.

Paralel olaraq, İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani deyib ki, müqavimət qrupları İrandan əmr almır, öz qərarlarını özləri verirlər.

Kənani ABŞ administrasiyasına "ittihamlar səsləndirmək əvəzinə, onların qəbuledilməz davranışlarına və sionist varlığa dəstək tədbirlərinə diqqət yetirməyi" tövsiyə edib. Kənani deyib: "Müharibəyə görə ABŞ məsuliyyət daşıyır. Çünki bu, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının İsrailin hücumlarına son qoymaq barədə qərar qəbul etməsinə mane oldu". Kənaninin bəyanatı Əli Xameneinin başçılıq etdiyi yüksək səviyyəli İran rəsmilərinin əvvəlki bəyanatlarını təkrarlayır.

Kənani qeyd edib ki, Tehran Vaşinqtondan Ağ Evin müharibənin miqyasını genişləndirmək istəmədiyini təsdiqləyən mesaj alıb və hətta ABŞ Tehranı müharibənin alovlanmadan dayandırmaq üçün öz təsirindən istifadə etməyə çağırıb. "Bizim də cavabımız budur ki, müqavimət qrupları öz qərarlarında müstəqildirlər".

### Regional gərginlik

**Tehran SEPAH-ın pul və silahla dəstəklədiyi qrupların hərəkətlərindən uzaq durub. Kənani "Amerikanın Suriyadakı mövcudluğu işğaldır və heç bir hüquqi əsası yoxdur. Suriya hökuməti etirazlarını BMT-yə çatdırıb.**

Müqavimət qruplarının hərəkətlərinin İranla heç bir əlaqəsi yoxdur. Biz ABŞ-ın bəyanatlarını bir növ qaçış kimi qiymətləndiririk. Əlbəttə, İran regionda gərginliyin olmasını istəmir və biz dəfələrlə bəyan etmişik ki, müharibənin qızışmasını istəmirik", - deyə bildirib.

Kənani sözlərinə belə davam edib: "İran bir tərəfdən, müharibənin genişlənməsindən qorxduğunu ifadə edərkən, digər tərəfdən, ABŞ-ın müharibəyə dəstək verdiyini bildirdik. ABŞ başa düşməlidir ki, dərhal qətllərin dayandırılması, humanitar blokadanın aradan qaldırılması və ordunun bölgədən çıxarılması müharibənin genişlənməsinin qarşısını ala bilər".

Ərəb təşəbbüsünü və iki dövlət həllini rədd edən, ölkəsinin mövqeyini təkrarlayan Kənani bu mövzuda belə danışıb: "İran dənizdən çaya vahid Fələstin dövlətinin qurulmasına inanır. İranın bütün Fələstin vətəndaşları üçün referendum keçirmək qərarı BMT-də sənədləşdirilib. İranın münasibəti dəyişməyib".

### Ben-Qurion nəzəriyyəsi

**Bu arada İranın keçmiş xarici işlər naziri Məhəmməd Cavad Zərif ölkəsinin İsraillə birbaşa müharibəyə sürüklənməsi ilə bağlı xəbərdarlıqlarını təkrarlayıb və İrandakı bəzi tərəflərin "qətiyyətli səylərindən" danışıb.**

Zərif Telegram vasitəsilə bir qrup vətəndaşla açıq iclasda bildirib ki, keçmiş prezident Həsən Ruhaninin son vaxtlar təkrar etdiyi xəbərdarlıqların səbəbi "siyasi partiyanın İranı müharibəyə cəlb etmək cəhdidir".

Bəzi islahatçı saytlar Zərifin Xameneinin İranın Ali Milli Təhlükəsizlik Şurasındakı nümayəndəsi Səid Cəlilinin göndərdiyi mesajı nəzərdə tutduğunu bildirib.

"Ham-Mihan" qəzetinin baş redaktorunun moderatorluğu ilə keçirilən iclasda Zərif İranın Rusiya-Ukrayna müharibəsində "aldandığını" bildirib: "Rusiyanın bizi Ukraynada aldatması təəssüf doğurur. Pilotsuz uçuş aparatlarını bizdən alıb özlərini ifşa etdilər. Nüvə balansı hesablamalarında bunun dəhşətli səbəbləri var. Bu, onlar üçün də, bizim üçün də təhlükəli idi".

Qəzza ilə bağlı Zərif "İranın Ali Rəhbərinin çox diqqətli olduğunu" ifadə edərək, "İqtisadi problemlər bir yana qalsın, İran və Hizbullahın bu müharibəyə girməsi əslində İsrailin son ümidini təmsil edir" deyib. Zərif xəbərdarlıq edib ki, bu, "Ben-Qurionun İsraildən kənarda döyüşmək nəzəriyyəsinin canlanmasıdır".

### İran kəskin ifadələrdən yayınır?

**Amma maraqlıdır: bütün bu kəskin və həvəsləndirici ritorikadan kənarda Fələstin üçün nə iş görür İran? İran müharibəyə girib-girməyəcəyinə dair başaldadan çıxışları ilə HƏMAS-a ümid verir, yoxsa Yaxın Şərqin fələstinyönümlü əhalisinin nəzərində özünün xilaskar obrazını yaradır? Bunun cavabını İran Məclisinin üzvü, millət vəkili Mahmud Abbaszadə dolayısı yolla verir. O, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyana qarşı "İsrail yer üzündən silinməlidir" ifadəsində dəyişiklik olması səbəbindən parlamentə etiraz təklifi təqdim edib.**

Deputat Abbaszadə petisiyasında Tehran administrasiyasının xarici siyasətdə İsrail və Səudiyyə Ərəbistanına münasibətini dəyişdiyini əsaslandırıb.

Qəzza müharibəsindən əvvəl İran siyasətində tez-tez səslənən "İsraili yer üzündən silmək" diskursunun müharibədən sonra dəyişməsini tənqid edən Abbaszadə parlamentə xarici işlər naziri Abdullahiyanla bağlı etimadsızlıq təklifi təqdim edib.

Xatırladaq ki, 1979-cu ildə inqilabdan sonra İranda hakimiyyətə gələn Ayətullah Xomeyninin 1982-ci il sentyabrın 8-də Tehranda etdiyi çıxışda işlətdiyi "İsrail yer üzündən silinməlidir" ifadəsi bu günə kimi İranda dövlət siyasəti kimi səslənir.

İsraili rəsmən tanımayan İran administrasiyası SEPAH-ın tərkibində qurduğu "Qüds Qüvvələri" və bölgədə dəstəklədiyi "Müqavimət Qüvvələri" vasitəsilə anti-İsrail əhval-ruhiyyəsini önə çəkir.

Tehran rəhbərliyi bir tərəfdən bölgədə ona yaxın qüvvələrin İsrailə qarşı hücumlarını dəstəklədiyini bəyan edərkən, digər tərəfdən də bu hücumlarla heç bir əlaqəsinin olmadığını açıqlayır.

### "Döyüşdənkənar" üsullar

**Bu arada, SEPAH-ın baş koordinatoru Məhəmməd Rza Nakdi, qüvvələrinin dini lider Əli Xameneinin Qəzzaya getmək əmrini "gözlədiklərini", lakin onları İsrailə təzyiq etmək üçün "döyüşdənkənar" üsullara riayət etməyə çağırıb.**

İran mətbuatında yer alan xəbərlərə görə, parlamentdəki bir nümayəndə deyib ki, əgər müharibə genişlənərsə, Müqavimət qüvvələri dəniz zolaqlarını, İsrail gəmilərini və onların müttəfiqlərini hədəfə ala bilər.

Nakdi, SEPAH-ın Qəzzada təşkil etdiyi konfransda "Fələstinə heç bir əsgər göndərilməsə də, bu, evdə boş oturmaq demək deyil. Qəzzə zolağına getmək əmri verilənə qədər biz oradakı mücahidlərə başqa yollarla kömək edəcəyik" deyilib.

Nakdi əlavə edib ki, İsraillə müharibə edən tərəflər bir-birini tamamlayan əməliyyatlar aparmalıdır. Onun sözlərinə görə, İsrail tərəfi Həmas-ın müqavimətindən ağrılı zərbələr alır.

Nakdi onu da deyib ki, SEPAH Türkiyə və bəzi bölgə ölkələrindən ABŞ və İsrailə məxsus hərbi və kəşfiyyat bazalarını bağlamalarını istəyib.

*✍ Vüsal Tağıbəyli*

---



**■ "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 01 noyabr 2023-cü il tarixinədək 418,7 mlrd. kubmetr qaz hasil edilib. Energetika Nazirliyindən verilən məlumata görə, qeyd olunan həcmin 214,1 mlrd. kubmetr AÇG-dən, 204,6 mlrd. kubmetri "Şahdəniz"dən hasil edilib.**

"Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın 144,8 mlrd. kubmetri ixraca nəql edilib", - məlumatda qeyd olunur. Məlumata görə, 2023-cü ilin yanvar-oktyabr ayları üzrə operativ məlumatlara əsasən, 10 ay ərzində Azərbaycanda 40,1 mlrd. kubmetr təbii qaz hasil edilib. Qazın 10,7 mlrd. kubmetri AÇG-dən, 21,8 mlrd. kubmetri "Şahdəniz"dən, 0,5 mlrd. kubmetri "Abşeron"dan, 7,1 mlrd. kubmetri SOCAR üzrə hasil olunub.



**■ Ötən il fındıq bağlarının 25 faizədək hissəsi Zaqatala, 13 faizədək hissəsi Balakən, 13 faizi Xaçmaz, 12.5 faizi Qax, 8.8 faizi Qəbələ, 8.1 faizi Qusar, 5.9 faizi Şəki, 5.4faizi isə Oğuzun payına düşüb.**

Hazırda həmin ərazilərdə fermerlərin aktiv fəaliyyəti üçün dövlət dəstəyi göstərilir. Bunu Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri Azad Cəfərli deyib. O qeyd edib ki, hazırda ölkəmiz fındıq istehsalçısı kimi dünyada ilk beşlikdədir: "2021-ci ildə dünya üzrə fındıq istehsalının 63.5 faizi Türkiyənin, 7.9 faizi İtaliyanın, 6.5 faizi ABŞ, 6.3 faizi isə Azərbaycanın payına düşüb. 2022-ci ildə ölkə üzrə fındığın ümumi əkin sahəsi 81.1 min hektar olub. Elektron kənd təsərrüfatı informasiya sistemi fındıq bağlarının qeydiyyata alınmasında mühüm rol oynayıb.



**■ Mən, təxminən, otuz ildir ki, bizim pansionatda qalıram, ikiotaqlı mənzilim var. Bunu Milli Məclisin iclasında deputat Sabir Rüstəmxanlı deyib. Sabir Rüstəmxanlı bütün yazı-pozu işlərinin ora ilə bağlı olduğunu söyləyib: "Sakit bir yerdir.**

Amma orada biznesmen kimi qalıram. Başa düşmürəm, mən biznesmenəm? Hətta hökumət işçiləri orada güzəştli şəkildə qalır, amma onlardan aşağı maaş alan millət vəkili, yəni mən belə qala bilmirəm. Mən məcburam orada qalam, başqa imkan yoxdur. Amma mən orada biznesmen kimi qalıram. Məndən biznes uçotu ilə, biznes müqavilələri ilə illik pul alırlar. Bu, harada görünüb? Nəyə görə belə olmalıdır? Nazirlər Kabinetinin işçiləri, başqa strukturların işçiləri normal qiymətlə qalırlar, bizdən isə iki-üç dəfə artıq pul tələb edirlər.



**■ "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqları istismara veriləndən 01 noyabr 2023-cü il tarixinədək 625,7 mln. ton neft (kondensatla birlikdə) hasil edilib. Energetika Nazirliyindən verilən məlumata görə, hesabat dövründə AÇG-dən 581,9 mln. ton neft, "Şahdəniz"dən isə 43,8 mln. tona yaxın kondensat çıxarılıb.**

"Bundan 01 noyabr 2023-cü il tarixinədək 623,7 milyon tonu ixraca nəql edilib", - məlumatda qeyd edilib. Məlumata görə, 2023-cü ilin yanvar-oktyabr ayları üzrə respublikada 25,3 mln.ton neft (kondensatla birlikdə) hasil edilib. Respublika üzrə neft hasilatının 15 mln. tonu AÇG-nin, 3,6 mln. tonu (kondensat) "Şahdəniz"in, 0,2 mln. tonu (kondensat) "Abşeron" yatağının payına düşüb.



**■ Hazırda parlamentin fəaliyyəti yeni keyfiyyət mərhələsinə daxil olub, parlament diplomatiyası daha çox önə çıxır. Bunu Milli Məclisin iclasında Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Babaoğlu deyib.**

Deputat bildirib ki, Milli Məclisdə deputatların masalarındakı kompüterlərin daha funksional kompüterlərlə əvəzlənməsi üçün vəsait nəzərdə tutulsa, yaxşı olar: "Parlament diplomatiyası ilə Azərbaycan xalqının milli maraqlarının qorunması üçün çoxsaylı tədbirlər keçirilir.

Yeni keyfiyyət statusunda Milli Məclisin Aparatının xərclərinin artırılmasına ehtiyac var. Bizim istifadə etdiyimiz texniki avadanlıqların yenilənməsi bunlardan biridir.



**■ Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsi 2017-ci ildə istismara verilib və Gürcüstan ərazisində onun genişləndirilməsi üçün işlər bu ilin sonuna qədər başa çatdırılacaq.**

Bunu Dayanıqlı İnkişafa dair 2-ci Bakı Forumunda çıxışı zamanı iqtisadiyyat naziri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədr müavini Mikayıl Cabbarov deyib. O qeyd edib ki, digər mühüm layihə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başlamasıdır. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yanında yerləşən və müasir infrastruktura malik olan Ələt Azad İqtisadi Zonası yerli və xarici investorları cəlb etməklə yüksək əlavə dəyərli, ixracyönümlü məhsul və xidmətlər istehsalını təşkil edəcək, Azərbaycanın tranzit imkanlarını genişləndirəcək, yükdaşımaları artıracaq.

# Maaş və pensiya artımı gözləntiləri

***Milli Məclisdə 2024-cü ilin dövlət büdcəsi zərfinə daxil olan qanun layihələrinin müzakirəsinə başlanılıb. Qeyd edək ki, layihə sənədinə əsasən, 2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 2023-cü ilin dövlət büdcəsi gəlirlərindən 282,5 milyon manat çox olaraq, 34 milyard 173 milyon manat nəzərdə tutulub. Dövlət büdcəsi gəlirlərinin 50,2 faizi qeyri-neft sektorunun, 49,8 faizi isə neft-qaz sektorunun hesabına formalaşacaq.***



## Müzakirə

Qeyri-neft-qaz sektorunda büdcə daxilolmalarının 1 058,2 milyon manat artması, neft qaz sektorundan büdcə daxilolmalarının isə 775,7 milyon manat azalması proqnozlaşdırılır.

Gələn il üzrə dövlət büdcəsi xərclərinin 2023-cü ilə nisbətən 138,2 milyon manat artırılaraq, 36 milyard 763 milyon manata çatdırılması məqbul hesab edilir. Dövlət büdcəsi xərclərində sosialyönümlü xərclərin 1034,5 milyon manat artırılaraq 15 772,9 milyard manata və ya xərclərin 42,9 faizə çatdırılması dövlətin sosial siyasətinin icra edilməsini lazımi maliyyə resursları ilə təmin edəcək. Bəs, görəsən gələn il maaş və pensiyalarda nə qədər artım gözlənilir?

### Sosial təyinatlı xərclər 20 dəfədən çox artıb

■ **Məsələ ilə bağlı iqtisadçı-ekspert Pərviz Heydərov deyib ki, Azərbaycanın dövlət büdcəsi hər zaman sosialyönümlü olub:**

"Əgər biz son 20 il ərzindəki statistik göstəricilərə nəzər salsaq görərik ki, sosial təyinatlı büdcə xərcləri 20 dəfədən çox artıb. Dövlət başçımızın rəhbərliyi altında orta aylıq nominal əməkhaqqı 12, minimum əməkhaqqı isə 38 dəfədən çox yüksəlib. Son 20 il ərzində orta aylıq pensiya 18 dəfəyə yaxın, minimum pensiya məbləğisə 14 dəfə artıb. Gəlirləri 34 milyard 173 milyon manat, xərcləri isə 36 milyard 763 milyon manat təşkil edəcək 2024-cü ilin dövlət büdcəsi də builkindən daha çox sösialyönümlüdür. Funksional təsnifat üzrə proqnoz göstəricələrinə diqqət yetirsək, təhsilə 4 549,9 milyon manat, səhiyyəyə 1 871,3 milyon manat, sosial müdafiə və sosial təminata 4 542,2 milyon manat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu kimi digər fəaliyyətə 574,8 milyon manat ayrıldığını görərik. Təkcə sosial müdafiə və təminat üzrə nəzərdə tutulan 4 542,2 milyon manat xərc cari ilin dövlət büdcəsində proqnozlaşdırılan eyni xərcdən 5 faiz artıq təşkil edir. Halbuki, 2024-cü ilin dövlət büdcəsi həcm baxımından öz sələfi olan cari ilin dövlət büdcəsilə müqayisədə çox az böyüyüb. Gəlir ilə xərclərin artması müvafiq olaraq heç 1 faiz təşkil etmir. Odur ki, sual yaranır: növbəti ilin dövlət büdcəsi həcm baxımından cari ilin dövlət büdcəsindən heç də artıq olmadığı halda, daha çox sösialyönümlü olması sarıdan əməkhaqqları, pensiyalar və müxtəlif təyinatlı sosial ödənişlər yüksəldiləcəkmi? Başqa sözlə 2024-cü ildə ölkədə 2019-cu ildən bəri sayca beşinci sayılacaq sosial paket həyata keçiriləcəkmi?

### 2021-ci il bərpa ili oldu

**Ekspertin sözlərinə görə, 2019-cu il həm sosial, həm iqtisadi, həm də idarəetmə sahəsində böyük islahatlar ili kimi yadda qaldı. Həmin ildən ölkədə minimum əməkhaqqı və əmək pensiyalarının minimum məbləği daha sürətlə və əhəmiyyətli dərəcədə artmağa başladı.** Həmin il iki sosial paket həyata keçirildi. Bunu 2020-ci il ərzində də davam etdirmək nəzərdə tutulurdu. Lakin pandemiya imkan vermədi. 2021-ci il bərpa ili oldu: "2022-ci ildə isə 2019-cu ildəki işlərin davam etdiriləcəyi bəlli idi. 3-cü sosial paketin icrasına məhz 2022-ci ilin əvvəlində gedildi. İki illik fasilədən sonra 2022-ci ildə minimum əməkhaqqı 300 manata, əmək pensiyalarının minimum məbləği isə 240 manata çatdırıldı. Bu ilin, yeni 2023-cü ilin ilk günlərində isə Prezident tərəfindən son 5 ildə sayca dördüncü sosial paketin icrasına dair sərəncam imzalanmaqla minimum əməkhaqqı, pensiya məbləği və bütün növ sosial müavinətlər, təqaüdlər artırıldı. Sərəncamla minimum əməkhaqqı yanvarın 1-dən 15 faiz artırılaraq 300 manatdan 345 manata, minimum pensiya məbləğisə 40 manat artırılaraq 240 manatdan 280 manata çatdırıldı.

> *Ölkədə gələn il beşinci sosial paketin icrası üçün də imkan və şərait, həmçinin zərurət var*

> *Gələn il birbaşa sosial müdafiə və sosial təminat xərcləri 5 faiz artırılaraq 4 milyard 542 milyon manata çatdırılacaq*

Təbii ki, ölkədə gələn il beşinci sosial paketin icrası üçün də imkan və şərait, həmçinin zərurət var. 2024-cü ilin dövlət büdcəsindən sosial istiqamətə ayrılan vəsaitlər buna imkan yaradır. Eyni zamanda, son illərdə dövlət büdcəsinin icra vəziyyəti, gəlirlərin keyfiyyəti və strukturu cəhətdən də hər cür şərait mövcuddur. Son illər ərzində neftin qiymətləri bizim üçün əlverişli olub, olaraq da qalır. Proqnozlaşdırılandan ikiqat artıq gəlir əldə edirik. İl ərzində büdcənin icrasında profisitin əldə olunması da əsasən bunun nəticəsidir".

### Əmək pensiyaları indeksasiya olunaraq artırılacaq

■ **Mövzu ilə bağlı millət vəkili Vüqar Bayramov da bildirib ki, gələn il vətəndaşların sosial təminatın daha da gücləndiriləcəyi proqnozlaşdırılır:**

"Gələn ilin dövlət büdcəsindən sosial müdafiə və sosial təminat üzrə xərclərdə artımın nəzərdə tutulması 2024-cü ildə sosial təminatın daha da güclənəcəyindən xəbər verir. Belə ki, gələn il birbaşa sosial müdafiə və sosial təminat xərcləri 5 faiz artırılaraq 4 milyard 542 milyon manata çatdırılacaq. Qeyd edək ki, bu rəqəm birbaşa sosial xərclərdir. Bütövlükdə sosial istiqamətli xərclər isə 36 milyard 355 milyon manatlıq büdcə xərclərinin 45 faizindən çoxunu təşkil edəcək. Sosial istiqamətdə daha çox vəsaitlərin nəzərdə tutulması gələn il sosial proqramlara ayrılan vəsaitin artırılacağından xəbər verir. Növbəti ilin yanvarından etibarən bütün növ əmək pensiyaları indeksasiya olunaraq artırılacaq. Digər sosial istiqamətlərdə də təminatın gücləndəcəyi gözlənilir".

*✍ Sevinc*

# Xaricdə təhsillə bağlı yenilik

***Gələn il Azərbaycan gənclərinin dövlət hesabına xaricdə hansı ixtisaslar üzrə təhsil alacağı məlum olub. Belə ki, növbəti tədris ilində "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində dünyanın nüfuzlu universitetlərinin bakalavriat və magistratura səviyyələri üzrə maliyyələşdiriləcək təhsil proqramlarının siyahısı müəyyən edilib.***



## Təhsil

Elm və Təhsil Nazirliyindən verilən məlumata görə, bu siyahının öncədən elan olunması təhsilini xaricdə davam etdirmək istəyən vətəndaşların göstərilən proqramlar üzrə qəbul sənədlərini daha əvvəl əldə etməsinə imkan yaradacaq. 2024-2025-ci tədris ilində siyahıda 15 prioritet ixtisas sahəsi üzrə dünyanın 28 ölkəsinin 179 nüfuzlu ali təhsil müəssisəsində tədris olunan 631 bakalavriat və 3362 magistratura olmaqla ümumilikdə 3993 təhsil proqramı yer alır.

Namizədlər eyni zamanda müvafiq reytinq cədvəllərində ilk onluqda yer almış ali təhsil müəssisələri tərəfindən təqdim olunan digər ixtisas sahələri üzrə bakalavriat və ya magistratura proqramlarından əldə etdikləri qəbul məktubları əsasında müsabiqədə iştirak edə biləcəklər. Bu il ilk dəfə mədəniyyət və incəsənət sahəsi üzrə nüfuzlu ali təhsil müəssisələri tərəfindən təqdim olunan bakalavriat və magistratura proqramları üzrə namizədlərin müraciətləri qəbul ediləcək.

### 381 nəfər xaricdə təhsil almaq hüququ qazanıb

**Məlumat üçün qeyd edək ki, 2023-2024-cü tədris ilində "2022-2026 Dövlət Proqramı" çərçivəsində ümumilikdə dünyanın 17 ölkəsinin nüfuzlu ali təhsil müəssisələri üzrə 381 nəfər Azərbaycan Respublikası vətəndaşı təhsil almaq hüququ qazanıb.** Proqram iştirakçılarından 49 nəfəri cari il üzrə dünyanın 10 ən yaxşı universitetinə qəbul olunub.

Müvafiq siyahı ilə keçiddən tanış olmaq mümkündür. Əlavə suallarla bağlı dp22-26@edu.gov.az ünvanına müraciət etmək olar.

Bəs, görəsən, 2024-2025-ci tədris ili üzrə müəyyənləşdirilmiş ixtisasları Azərbaycan üçün nə dərəcədə prioritet hesab etmək olar? Növbəti il üzrə nəzərdə tutulan proqramlarda bu illə müqayisədə hansı dəyişikliklər var?

### Siyahıda 15 prioritet ixtisas sahəsi yer alıb

■ **Məsələni qəzetimizə şərh edən təhsil eksperti Elçin Əfəndi deyib ki, 2024-2025-ci tədris ili üçün siyahıda 15 prioritet ixtisas sahəsi yer alıb:** "Bu dünyanın 28 ölkəsinin 179 nüfuzlu ali təhsil müəssisəsində tədris olunan 631 bakalavriat və 3362 magistratura olmaqla ümumilikdə 3993 təhsil proqramını əhatə edir. Bu il olduğu kimi gələn il də əsas ağırlıq kompüter mühəndisliyi, proqramlaşdırma, kriptovalyuta, blokçeyn üzrə sahələri əhatə edən ixtisaslar üzrədir. Hansı ki, bu sahələr ölkəmiz üçün prioritet hesab olunur.

> *80 faiz magistratura, 20 faiz bakalavr üzrə dpvlət hesabına təhsil alacaq*

Dünyanın əksər ölkələri, xüsusilə inkişaf etmiş ölkələrdə bu istiqamətdə təhsilə üstünlük verilir. Bu il faiz nisbəti də olduğu kimi saxlanılıb. Yəni 80 faiz magistratura, 20 faiz bakalavr üzrə dpvlət hesabına təhsil alacaq. Yeni ildə ilk dəfə mədəniyyət və incəsənət sahəsi üzrə nüfuzlu ali təhsil müəssisələri tərəfindən təqdim olunan bakalavriat və magistratura proqramları üzrə namizədlərin müraciətləri qəbul ediləcək".

*✍ Sevinc*

**Sosial**

***Məlum olduğu kimi, bu ilin sentyabrından xaricdən Azərbaycana idxal olunan məhsullara nəzarət artıb. Belə ki, Dövlət Gömrük Komitəsinin (DGK) əməkdaşları ölkəyə gətirilən mallara nəzarət tədbirləri həyata keçirərkən əqli mülkiyyət hüquqlarının qorunması, pirat və konfrafakt malların qarşısını almağa başlayıblar. Komitənin bununla bağlı yaydığı açıqlamaya görə, bu işlər «Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında» qanun, daha dəqiqi qanunun 10-cu maddəsi əsasında aparılır.***

# Saxta brendlərin bazarı bağlanır



Komitə xatırladıb ki, Gömrük Məcəlləsinin 287.1-ci maddəsinə əsasən tərkibində əqli mülkiyyət hüquqlarının obyektləri olan malların pirat və ya kontrafakt olması əlamətləri aşkar edildikdə gömrük orqanları həmin malların buraxılışını dayandırmaq hüququna malikdirlər.

Dövlət Gömrük Komitəsi həmçinin bildirir ki, tərkibində əqli mülkiyyət hüquqlarının obyekti olan mallardan qanunsuz istifadə İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə uyğun olaraq inzibati və cinayət məsuliyyəti yaradır.

### Təyyarə hissələrinin belə, 3 faizi saxtadır

Bəs, görəsən, bu addım yerli bazara necə təsir edib? Azərbaycan bazarlarında saxta "brend" məhsullar hələ də qalırmı?

■ **Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyib ki, hazırda dünya miqyasında əmtəə bazarlarında xeyli saxta məhsul var:** "Hətta beynəlxalq təşkilatlatların hesabatına əsasən, təyyarə hissələrinin belə 3 faizi saxtadır. Təbii ki, saxta məhsulların geniş yayılması tendensiyası Azərbaycandan da yan keçməyib.

Azərbaycanda biznes qurumları üçün çox rahat və toxunulmaz şərait yaradılıb. Bəzi biznes qurumları istehlakçıları aldadır. Məlumdur ki, dəfələrlə həmin biznes rəsmi qurumlar tərəfindən ifşa olunub. Bu mənada gömrük orqanlarının bu istiqamətdə başladığı işi təqdir edirəm. Çünki brend adı altında gələn bəzi məhsullar istehlakçıların aldadılaraq, onlardan artıq pul alınması ilə nəticələnməklə yanaşı, həm də insan həyatı üçün təhlükə yaradır. Misal üçün, avtomobil ehtiyat hissələri bu qəbildən olan mallara aiddir".

> *Dəfələrlə həmin biznes rəsmi qurumlar tərəfindən ifşa olunub*

> *Azərbaycan alıcılıq gücü zəif olan ölkələrdəndir*

### İstehlakçı aldığı malın sənədlərini tələb etməlidir

**Ekspert vurğulayıb ki, brend markalar adı altında istehsal olunan məhsullara maraq çoxdur: "Belə məsələlərə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti mütləq ciddi nəzarət etməlidir. Hətta iş o yerə gəlib çıxıb ki, şəhərin mərkəzində-"Sahil" metrosunun yaxınlığında saxta geyimlər satılan mağazalar mövcuddur.**

Təbii ki, istehlakçı həmişə aldığı malın sənədlərini tələb etməlidir. Satıcı da həmin sənədləri göstərməyə borcludur. Demək olar ki, sənaye məhsullarının bütün seqmentində saxta məhsul problemləri var. Bir məqamı da vurğulamalıyam ki, Azərbaycanda fəaliyyət göstərən brend məhsullarının nümayəndəlikləri də belə malların bazara ayaq açmasına susurlar. Görünür ki, onlar da bu "biznes"də maraqlıdırlar. Bu baxımdan hesab edirəm ki, yerli bazarı saxta məhsullardan tamamilə təmizləmək mümkünsüz görünür. Gərək bütün tərəflər bu məsələdə maraqlı olsunlar ki, görülən işin də müsbət effekti olsun".

### "Ölkədə ciddi qiymət artımı olacaq"

■ **Mövzu ilə bağlı iqtisadçı ekspert Rəşad Həsənov isə bildirib ki, Azərbaycan alıcılıq gücü zəif olan ölkələrdəndir: "Reallıq ondan ibarətdir ki, inkişaf etmiş ölkələrin əhalisinin, xüsusilə də onun az və ortagəlirli qruplarının tələbatının böyük bir qismini həmin məhsullar ödəyir. Hətta Birləşmiş Millətlər Təşkilatının zaman-zaman bu kimi məsələlərdə daha ehtiyatla davranmaqla bağlı tövsiyələri olur".**

İqtisadçı hesab edir ki, hazırda başladılmış prosesin nəticəsində ölkədə ciddi qiymət artımı olacaq: "Bundan başqa, mənim ən böyük narahatlığım o istiqamətdədir ki, bazar tələbi yüksək olanda bu kimi məhdudiyyətlər böyük korrupsiya risklərini formalaşdırır. Bir tərəfdən, bu mallara böyük bazar tələbi var, digər tərəfdən, müəyyən səlahiyyətli qurum bunu məhdudlaşdırır. Belə olduğu təqdirdə bazarda bu böyük tələbat qarşılığında müəyyən mənfəət əldə etmək istəyən tərəflər hərəkətə keçirlər ".

Xatırladaq ki, Azərbaycana brend məhsulların saxta versiyası əsasən Çindən idxal edilir. Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanın Çinlə ticarət dövriyyəsinin ümumi həcmi ötən ilin müvafiq dövrünə nisbətdə 49,2 faiz və ya 752,46 milyon ABŞ dolları artaraq 2,28 milyard dolları üstələyib. Statistik hesablamalara görə, cari ilin ilk 9 ayında Azərbaycandan Çinə 71,6 milyon dollar dəyərində məhsul ixrac edilib ki, bu da 2022-ci ilin eyni göstəricisindən 67 faiz və ya 28,7 milyon dollar çoxdur. Çindən Azərbaycana idxal edilən məhsulların dəyəri isə 48,7 faiz və ya 723,7 milyon dollar artaraq 2,21 milyard dollar təşkil edib.

Cari ilin yanvar-sentyabr aylarının nəticələrinə görə, ölkənin ümumi ticarət dövriyyəsində Çin ilə ticarətin payı 5,84 faiz təşkil edib ki, bu da bir il əvvəlki eyni göstəricidən 2 faiz bəndi çoxdur.

*✍ Sevinc*

# Qışın “kabusu” geri dönür?

***Payız-qış mövsümü olduğundan təbii qazın istifadəsinə tələbat xeyli artır. Bu, o deməkdir ki, hər gün dəm qazı “tor”una düşənlərin də sayı çoxalır. Təəssüf ki, hər il bu məsələ ilə bağlı eyni xəbərdarlıq və tövsiyələrə baxmayaraq, faciəvi hallar yenidən təkrarlanır. Dəm qazından zəhərlənmə halları isə təhlükəsizlik tələbləri pozulduğundan baş verir. Xüsusilə evlərin qızdırılması zamanı təhlükəsizlik tələblərinin pozulması, standartlara uyğun olmayan qızdırıcılardan istifadə edilməsi sonda faciə ilə nəticələnir.***





## Təhlükə

Yeri gəlmişkən, bu yaxınlarda Gəncə Şəhər Birləşmiş Xəstəxanasının nəzdində olan Akademik Z.Məmmədov adına xəstəxanaya dəm qazından zəhərlənmə səbəbindən 5 nəfər yerləşdirilib. Onların hamısı bir ailənin üzvləri olublar. Bəs, görəsən, bu kimi halların baş verməməsi üçün hansı addımları atmalıyıq? Dəm qazından kəskin zəhərlənmə hansı hallarda baş verir?

### İysiz, dadsız, rəngsiz

■ **Məsələ ilə bağlı təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev bildirib ki, dəm qazı iysiz, dadsız, rəngsiz, havadan yüngül olan qazdır: “Yanma prosesi düzgün getmədikdə dəm qazı əmələ gəlir.**

Əgər yanma prosesi düzgün gedərsə, onda dəm qazı əmələ gəlmir. Bəs, yanma prosesi nə zaman düzgün getmir? Təbii ki, qaz cihazlarına kənar müdaxilələr olarsa, qaz cihazlarının avadanlıqları standartlara cavab verməzsə, evə metal borular əvəzinə kapron və digər materiallardan olan borularla qaz çəkilərsə, qaz xəttində hər hansı bir nasazlıq, dəlik və sızma olarsa, onda dəm qazı əmələ gəlir. Həmçinin qaz sobalarına kənar müdaxilələrin edilməsi də çox təhlükəlidir. İnsanlar bir otaqdan digər otağa kustar üsulla hazırlanmış qaz xətti çəkirlər və ya qızdırıcı sobalara kənar müdaxilələr edirlər. Bu da yanma prosesinin düzgün getməməsinə gətirib çıxarır. Bundan başqa, evin bacaları ildə ən azı iki dəfə təmizlənməlidir. Əgər evin bacaları təmizlənməzsə, təbii ki, orada hava ventilyasiyası, sovrulması olmur və yanma prosesini də çətinləşdirir. Daha dəqiq desək, kömürün və odunun yanmasından belə dəm qazı əmələ gəlir. Evin havası gün ərzində iki dəfə-səhər və axşam dəyişməlidir. Evdə qazı yandırarkən əmin olmaq lazımdır ki, otaqda qaz iyi var və ya yox. Əgər evdə qaz iyi yoxdursa, onda kibriti çəkmək lazımdır. Hətta çöldən evə daxil olan zaman da otaqda qaz qoxusunun olub-olmadığını yoxlamaq, daha sonra işıqları yandırmaq vacibdir”.

### Əsas təhlükə hamam otağı və mətbəxdir

**Mütəxəssis vurğulayır ki, dəm qazları, əsasən, hamam otağında və mətbəxdə əmələ gəlir: “Demək olar ki, dəm qazının 95 faizi hamam otaqlarında əmələ gəlir.**

Qışda insanların qaza olan tələbatları daha çoxdur. Həmin vaxtda insanlar otaqlarda qapı-pəncərələri bağlı saxlayırlar. Yayda isə qapı-pəncərələr çox vaxt açıq olur və hava ventilyasiya olduğuna görə dəm qazı da, demək olar ki, olmur. Bir otaqdakı hava kütləsinin 0,1 faizi dəm qazı olarsa, bu, insan ölümünə gətirib çıxarır. Dəm qazı olan otaqda insanın həyatını itirməsi üçün 7 dəqiqə kifayət edir. Hamam otaqlarında olan zaman nəfəsliklər mütləq açıq olmalıdır. İnsanlar yayda həmin nəfəslikləri açıq, qışda isə bağlı saxlayırlar. Hamam otaqlarında ventilyasiya olmalıdır, qapıların aşağı hissəsində isə mütləq dəliklər olmalıdır. Hamam otaqlarına kustar üsulla hazırlanan qızdırıcılar qoyulmamalıdır. Bu, dəm qazının yaranmasına səbəb olur. Əgər insanlar bu standartlara əməl etsələr, dəm qazı riski azalar”.

### Havanı tez-tez dəyişmək lazımdır

■ **Mövzu ilə bağlı tibb üzrə fəlsəfə doktoru, terapevt Şəmsiyyə Namazlı isə qeyd edib ki, dəm qazından boğulma zamanı insanın mərkəzi sinir sistemi iflic ola bilər:**

”Qış mövsümündə dəm qazı zəhərlənmələri hər il olduğu kimi bu vaxtlarda müşahidə olunur. Ümumiyyətlə dəm qazının qarşısını almaq üçün öncədən hamamda pəncərələri açıq saxlamaq, havanı tez-tez dəyişmək lazımdır. Bu hallar vanna otaqlarında su qızdırıcıları olan yerdə baş verir. Çox təəssüf ki, indi hamam otaqlarında pəncərələri bağlı saxlayırlar və oraya hava getmir. Lakin bəzən bunun qarşısını almaq üçün qapılarda hava keçirici dəliklər olur. Bu baxımdan havada karbon dəm qazı artır və tədricən zəhərlənmələr baş verir. Dəm qazı zəhərlənmələri çox vaxt 1-ci, 2-ci, güclü, orta, zəif dərəcədə olur. İlk növbədə dəm qazından boğulmuş insan bunu hiss etmir. Yüngül formada baş gicəllənməsi olur, ürəkbulanma, yavaş-yavaş halsızlıq yaranır. İlkin simptomlar yaranan kimi insan bunu hiss etmədiyi üçün bu hallar otaq şəraitində qalaraq davam edir. Sonra keçir ikinci situasiyaya və burada artıq dəm qazının mərkəzi sinir sisteminə təsiri başlayır və insan artıq huşunu itirir. Belə ki, təzyiq aşağı düşür, nəbz sürətlənir və hətta dezrefleksləri də itir.

Bu, artıq ağır formalı dəm qazı ilə zəhərlənmə hesab olunur. Tədricən CO2 kimyəvi formullu dəm qazı mərkəzi sinir sistemini iflic edir. Buna görə də zəhərlənmiş insan özündən asılı olmayaraq huşunu itirir. Zəhərlənmə zamanı ilk növbədə pəncərəni açmaq, xəstəni təmiz havaya çıxarmaq, xəstə huşunu itiribsə, təcili sürətdə təzyiqini ölçmək və təcili tibbi yardım çağıraraq xəstəxanaya aparmaq lazımdır. Əgər yüngül formalıdırsa, onda xəstənin üzünə və bədəninin açıq nahiyələrinə soyuq su vurmaq lazımdır. Xəstənin udqunma aktı aktivdirsə, iflic olmayıbsa, ona maye vermək lazımdır. Təzyiqi aşağı olduqda ev şəraitində təzyiq qaldırıcı vasitələr verilir, başının altına yastıq qoyulur ki, vəziyyəti stabilləşsin. Huşsuz vəziyyətdə olduğu halda xəstə artıq xəstəxanaya aparılmalıdır”.

✍ *Sevinc*

> “
> *Yanma prosesi düzgün getmədikdə dəm qazı əmələ gəlir*
>
> *Dəm qazı zəhərlənmələri çox vaxt 1-ci, 2-ci, güclü, orta, zəif dərəcədə olur*

# Bu müavinətin təyin olunması elektronlaşdırılır

**Nazirlər Kabineti bununla bağlı “Pensiya yaşına çatmasına, əlilliyinə 2 görə könüllü işdən çıxmış, dövlət qulluğu vəzifəsində “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 23.2-ci maddəsi ilə müəyyən edilmiş minimum 15 il qulluq stajına və əmək pensiyası almaq hüququna malik olmayan dövlət qulluqçularına təyin edilən ömürlük müavinətin təyin olunması Qaydası”na dəyişiklik edib.**

Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. Müavinətin təyin edilməsi üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar ərizəçidən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.



ELAN

**İmanova Aynurə Xudayar qızına məxsus Ağdam rayonu Zəngişalı kənd orta məktəbi tərəfindən 1996-cı ildə verilmiş orta təhsil haqqında attestat itirildiyi üçün etibarsız sayılır.**

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏLTİFİ



Mir Şahin Ağayev 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasında media sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Mir Şahin Mirdilavər oğlu Ağayev 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilib. Qeyd edək ki, sabah M.Ağayevin 60 illik yubileyidir.

### Həftənin NAMİZƏDLƏRİ



“Altın Kelebek” mükafatlarına Azərbaycandan namizəd göstərilənlərin kimliyi bəlli olub. Bununla bağlı “Pantene Azərbaycan” instaqram hesabında paylaşım edilib. ”Ulduzu parlayanlar” kateqoriyasında namizədlər ”Avroviziya” təmsilçilərimizdən olan Samirə Əfəndi, aparıcı Kəmalə Piriyeva və bloger Nəcibə Əhmədi olub.

### Həftənin İLKİ



Türkiyənin “Kim Milyoner Olmak İster?” verilişində maraqlı anlar yaşanıb. Yeni mövsüm başlayandan bəri ilk dəfə Eyüp İşler adlı iştirakçı 5 milyon TL (297 327 AZN) dəyəri olan sualı açdırıb. Lakin o, suala doğru cavab verə bilməyib. E. İşler yarışmanı 50 000 TL (2 973 AZN) ilə tərk edib.

### Həftənin PREZİDENTİ



Gürcüstanın hakim partiyası olan “Gürcü arzusu” Salome Zurabişvilini prezident adlandırmamaq qərarına gəlib. “Zurabişvilinin deputatlar və onu seçən çoxluq tərəfindən legitimliyi yoxdur. Ona görə də biz onu prezident deyil, sadəcə olaraq Salome Zurabişvili və ya müxalifət siyasətçisi adlandıracağıq”,- deyə ”Gürcü Arzusu” vurğulayıb.

### Həftənin YUBİLYARI



Noyabrın 14-də Böyük Britaniyanın kralı III Çarlzın 75 yaşı tamam olur. Kral ad gününü həyat yoldaşı kraliça Kamilla və ailə üzvləri ilə birlikdə keçirib. Həmçinin, kral ad günündə müxtəlif xeyriyyə tədbirlərində də iştirak edib.

### Həftənin BACILARI



Külli miqdarda dələduzluqda ittiham olunan Binəqədi qəsəbə bələdiyyəsinin sabiq sədri Aytac Əliyeva və bacısı İlknur Turkutun cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Rasim Sadıxovun sədrliyi ilə keçirilən iclasda prokuror Rauf Malışov ittiham nitqi ilə çıxış edib. Prokuror bacıların verilmiş ittihamla təqsirli bilinmələrini, A.Əliyevanın 9 il, İ.Turkutun 8 il müddətinə azadlıqdan məhrum edilməsini tələb edib. Çıxışda qeyd edilib ki, İ.Turkut barəsində seçilmiş ev dustaqlığı qətimkan tədbiri ləğv edilməli, məhkəmə iclas zalında həbs edilməlidir.

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



Vaşinqtonda İsrail üçün yürüş

“

## Maaş və pensiya artımı gözləntiləri

**Vüqar Bayramov,**
millət vəkili

Gələn il birbaşa sosial müdafiə və sosial təminat xərcləri 5 faiz artırılaraq 4 milyard 542 milyon manata çatdırılacaq.

▸▸ Səh. 7

## STATİSTİKA



■ **Cari ilin yanvar-oktyabr ayları ərzində vergiödəyicilərinə xidmət mərkəzlərində ümumilikdə 542 min 447 şəxs qəbul edilib və onlara 966 min 389 sayda xidmət göstərilib.**

Yanvar-oktyabr ayları ərzində vergiödəyicilərindən daxil olmuş 25 mindən çox yazılı müraciət cavablandırılıb, onlara 9,8 milyondan çox məlumatlandırma xarakterli müxtəlif növ bildiriş (məktub), mobil telefon nömrələrinə 1 milyon 568 minə yaxın SMS göndərilib. Dövr ərzində 2.600 vergiödəyicisinin iştirakı ilə 224 görüş keçirilib, 4.262 vergi ödəyicisinə ünvanlı xidmət göstərilib.



▸▸ Səh. 6

## SEPAH bəyanat verir, siyasilər susur